**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**XƏZƏR UNİVERSİTETİ**

**HUMANİTAR, TƏHSİL VƏ SOSİAL ELMLƏR FAKÜLTƏSİ**

**Dillər və ədəbiyyatlar departamenti**

İstiqamətin şifri və adı: 060201

İxtisaslaşmanın adı: Azərbaycan ədəbiyyatı

Magistrant**: AYTAC FƏXRƏDDİN QIZI MƏMMƏDBƏYLİNİN**

magistr dərəcəsi almaq üçün

# MÜASİR AZƏRBAYCAN POEZİYASINDA MODERNİST MEYİLLƏR (ƏLƏKBƏR SALAHZADƏ YARADICILIĞI ƏSASINDA)

mövzusunda

DİSSERTASİYASI İŞİ

Elmi rəhbər: **Dilbər Zeynalova**,

fiologiya üzrə fəlsəfə doktoru, dosent

**Bakı-2020**

# M Ü N D Ə R İ C A T

**GİRİŞ**..........................................................................................................3

**I FƏSİL. ƏDƏBİYYATDA MODERNİZM ƏNƏNƏSİ: NƏZƏRİ EKSKURS**

1.1. Modernizmin nəzəri-estetik əsasları..........................................................6

1.2. Azərbaycan ədəbiyyatında modernizm təşəkkülü......................................14

**II FƏSİL. MODERNİST ŞEİRDƏ ASSOSİATİVLİK VƏ OBRAZLILIQ**

2.1. Ələkbər Salahzadənin yaradıcılığında modernizmin elementləri................28

2.2. Ə.Salahzadənin Azərbaycan modernist poeziyasına təsiri..........................45

**NƏTİCƏ**.........................................................................................................62

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**...........................................................65

# GİRİŞ

**Mövzunun aktuallığı.** Azərbaycan poeziyasında modernizm cərəyanının, eləcə də modern üslubda yazan şairlərin yaradıcılıqlarının öyrənilməsi Azərbaycan ədəbiyyatşünaslığının qarşısında dayanan problemlərdəndir.

“Modern” anlayış olaraq V əsrə aid edilsə də, cərəyan kimi XX əsrdə formalaşmağa başlamışdır. Azərbaycanda isə 1960-70-ci illərdə bu cərəyanın təsiri özünü göstərməyə başlamışdır. Azərbyacan poeziyasında modernizm cərəyanını formalaşdıranlar şeirə özünəməxsus bədii üslüb, fərdiyyətçiliyin orijinal təqdimatı, detalçılıq, şüur axını gətirmişlər.

Azərbaycan poeziyasında modernizmin öyrənilməsini bu günə qədər sistemli şəkildə tədqiq edilməmişdir. Modernizm ayrı-ayrı tədqiqatçıların araşdırmalarında yer alsa da, monoqrafik şəklidə tədqiqata cəlb edilməmişdir. Bu da dissertasiyanın elmi aktuallığını artırır.

**Tədqiqatın obyekti və predmeti.** Azərbaycan poeziyasında modernizmin sistemli şəkildə öyrənilməsi həlledici istiqamət kimi götürülmüşdür. Buraya modernizmin yaranma tarixi, xüsusiyyətləri də daxildir. Göstərilən istiqamətlərin müəyyənləşdirilməsində başlıca prinsip kimi əhatəlilik və struktur dərinliyinin maksimum təhlili əsas götürülmüşdür. Araşdırmanın başlıca obyektini müasir Azərbaycan poeziyası, xüsusilə Ələkbər Salahzadə yaradıcılığı təşkil edir. Ələkbər Salahzadənin poeziyası ilə yanaşı modern üslubda yazan digər şairlərin şeirləri də tədqiqata cəlb edilir. Ələkbər Salahzadə poeziyasında modernizmin xüsusiyyətlərini təyin etmək, üzə çıxarmaq, onları tədqiqata cəlb etmək tədqiqatın predmetini əhatə edir.

**Tədqiqatın məqsədi.** Tədqiqatın məqsədi Ələkbər Salahzadə yaradıcılığı əsasında Azərbaycan poeziyasında modernizmin formalaşmasını və ayrı-ayrı elementləini aşkar etməkdir.

**Tədqiqatın vəzifələri.** Tədqiqatın vəzifələrinə aşağıdakılar aiddir:

– Modernizmin yaranma zərurətini aşkar etmək;

– Modernizm ədəbi cərəyanının mahiyyətini göstərmək;

– Azərbaycan ədəbiyyatında modernizmin yaranması və təşəkkülündən bəhs etmək;

– Ələkbər Salahzadə poeziyası kontekstində müasir Azərbaycan poeziyasında modernizmin xüsusiyyətlərini aşkar etmək;

– Ələkbər Salahzadə şeirlərinin modernist mahiyyətini  ortaya qoymaq;

– Ələkbər Salahzadənin Azərbaycan modernizminə gətirdiyi yeniliklərdən bəhs etmək

**Tədqiqatın metodologiyası.** Dissertasiyada analitik, tarixi-müqayisəli və digər metodlardan istifadə olunmuşdur. Dissertasiya hazırlanarkən Azərbaycan tədqiqtaçılarından Rəsul Rza, Məmməd Cəfər, Vaqif Yusifli, Yaşar Qarayev, Sevinc Məmmədova, Zakir Məmməd, Nərgiz Cabbarlı və başqalarının araşdırmalarından nəzəri-praktik şəkildə geniş istifadə edilmişdir. Mövzu ilə bağlı dünya ədəbiyyatşünaslarının da elmi nəaliyyətləri nəzərə alınmışdır.

**Tədqiqatın mənbələri.** Araşdırmanın əsas mənbəyini Azərbaycan poeziyası təşkil edir. Mənbə kimi, V.Ə. Yusiflinin "Poeziyanın yolları və illəri (1960-2000-ci illər)", R.N. Əliyevin "Sənətkarlıq axtarışlarının yeni mərhələsi. Poeziyanın təbiiliyi", M.Z Cəfərovun "Şeirimiz son beş ildə" (Seçilmiş əsərləri, III cild), eləcə də Nərgiz Cabbarlının məqalələrindən, Ələkbər Salahzadənin şeir kitablarından istifadə etmişik. Həmçinin Azərbaycan, türk, rus, Avropa tədqiqatçılarının modernizmlə bağlı tədqiqlərinə, elmi-nəzəri qənaətlərinə istinad olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** İşin elmi yeniliyi ondan ibarətdir ki, Ələkbər Salahzadənin poeziyasında modernizm xüsusiyyətləri ilk dəfə magistr dissertasiyası səviyyəsində tədqiq edilir.

**Tədqiqatın elmi-nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın elmi nəticələrindən ali məktəb tələbələrinin kurs işləri, magistr dissertasiya işlərinin və orta məktəb dərsliklərinin yazılmasında istifadə oluna bilər.

**İşin aprobasiyası.** Dissertasiya işi Xəzər Universitetinin "Dillər və ədəbiyyatlar" departamentində hazırlanmışdır. Dissertasiya işi ilə əlaqəli tezis və məqalələr nəşr olunmuşdur. "Dil və ədəbiyyat" jurnalında "Ələkbər Salahzadə

yaradıcılığında assosiativlik" (2020,№1) adlı məqalə çapdadır. Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan filologiyası" mövzusunda keçirilən Respublika virtual elmi konfransında "Azərbaycan modernist poeziyasının əsas xüsusiyyətləri" adlı məruzə ilə çıxış edilmişdir.

**Dissertasiya işinin quruluşu.** Dissertasiya işinin ümumi xarakteristikası iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatdan ibarətdir.

## İŞİN MƏZMUNU

"Müasir Azərbaycan poeziyasında modernist meyillər (Ələkbər Salahzadə yaradıcılığı əsasında)" mövzusunda magistr dissertasiyası "Giriş", iki fəsil, "Nəticə" və "Ədəbiyyat siyahısı"ndan ibarətdir.

"Ədəbiyyatda modernizm: nəzəri ekskurs" adlı birinci fəsil iki yarımfəsildən ibarətdir. "Modernizmin nəzəri-estetik əsasları" başlıqlı birinci yarımfəsildə modernizmə xas olan xüsusiyyətlər, eləcə də "modern" anlayışının yaranma və cərəyan kimi yaranma tarixi araşdırılmışdır. İkinci yarımfəsil "Azərbaycan ədəbiyyatında modernizm" adlanır. Burada Azərbaycan ədəbiyyatında modernizmin tarixinə, eləcə də modern üslubda yazıb-yaradan şair və yazıçıların əsərlərinə nəzər salınmışdır.

"Modernist şeirdə assosiativlik və obrazlılıq" adlı ikinci fəsildə təhlil və tədqiqat işi Ələkbər Salahzadə yaradıcılığı əsasında aparılır. İkinci fəsil "Ələkbər Salahzadənin yaradıcılığında modernizmin elementləri" və "Ələkbər Salahzadənin Azərbaycan modernist poeziyasına təsiri" adlı yarımfəsillərdən ibarətdir. Bu yarımfəsillərdə Ələkbər Salahzadənin poeziyası təhlil edilmişdir. Bundan əlavə, Ələkbər Salahzadənin müasir Azərbaycan poeziyasına təsiri araşdırılır.

Nəticədə dissertasiya işində aparılmış təhlillər və əldə edilmiş nəticələr ümumiləşdirilmişdir. Sonda tədqiqat işinin yazılmasında istifadə olunan "Ədəbiyyat siyahısı" verilmişdir.

# I F Ə S İ L. ƏDƏBİYYATDA MODERNİZM: NƏZƏRİ EKSKURS

## 1.1.Modernizmin nəzəri-estetik prinsipləri

Ayrı-ayrı tarixi dövrlərdə və məkanlarda həyatı əksetdirmə üsullarına görə ədəbi qruplar və cərəyanlar meydana gəlmiş, özlərindən sonra isə yeni cərəyanların yaranması üçün zəruri şərait yaranmışdır. Hər yeni cərəyan isə ya əvvəlkinin daha genişləndirilmiş forması, ya da inkarı olmuşdur.

Modernizmin yaranması 19-cu əsrin sonu – 20-ci əsrin əvvəllərinə təsadüf edir. İtalyan sözü olan "modern" "modernus" sözündən yaranaraq "müasir", "ən yeni" mənalarını ehtiva edir. "Modern" sözü V əsrdə Romanın bütpərəst keçmişi ilə xristian bu gününü ayırmaq, fərqləndirmək üçün istifadə edilmişdir. Müasir filoloji düşüncədə, nəzəri cəhətdən iki məna kəsb edir:

1. Köhnədən yeniyə keçid dövrünün mədəniyyəti;
2. Tarixə və ənənələrə qarşı çıxan cərəyan.

Cərəyan kimi formalaşan modernizm anlayışı həqiqətdən uzaqlaşma, şəxsiyyətin mütləqləşməsi, yadlaşma, fərdiliyin itirilməsi və digər məsələləri əks etdirən movzlarla bağlıdır. Modernizmin fəlsəfi əsaslarını Freydin, Yunqun psixoanalizi, Nitşenin, Şopenhauerin irrasionalizmi, Sartrın, Kamyunun eszistensializmi, Qusserlyanın fenomologiyası və s. hesab olunur. Modernizmi dar və geniş anlamlarda başa düşmək olar. Dar mənada yeniliyin köhnəlik üzərində qələbəsi nəzərdə tutulduğu halda, geniş mənada kubizmi, dadaizmi, ekspressionizmi, futurizmi və s. cərəyanları özündə birləşdirir.

Orta dövr fəlsəfəsi sxolastik olub, "məktəb fəlsəfəsi" adlanırdı. Din adamlarının yetişdirdikləri bu məktəblərdə elmi düşüncəyə zidd dünyagörüşü formalaşmağa başladı. Sxolastik düşüncədə inanc ön planda idi. Bu düşüncə tərzi yenilik axtarışında deyildi, əksinə, müqəddəsləşdirməni, köhnəyə sadiqliyi təbliğ edirdi. XV əsrdə sxolastik düşüncə tənəzzülə uğradı, əvəzində yeniliklər üçün şərait yaratdı. Nikolay Kopernik əvvəlki astronomiya anlayışını dəyişdirdi, Martin Lüter Uittenber divarlarından manifestini asdırdı, reformist etiraz qaldırdı.

XVIII əsr yeniləşmə üçün yeni şərait, mühit formalaşdı. Avropaya yayılan Sənaye inqilabı modernizm üçün münbit şərait formalaşdırdı. Fransız simvolistlərinin, xüsusilə Bodlerin, Malllarmenin təsiri ilə modernizm ədəbi hərəkat kimi formalaşmışdır. Hərəkatın vüsət alması ilə ədəbiyyatda estetik baxışların başqa yönə istiqamətlənməsini zəruri etdi. Eyni zamanda, modernizmin hərəkat kimi formalaşma tarixi barəsində müxtəlif fikirlər olmuşdur. Bu hərəkatı Yitsin, Konradın adı ilə bağlayanlar da olmuş, Birinci Cahan müharibəsindən sonra yarandığını söyləyənlər də.

Modernizm bir ədəbi hərəkat kimi 20-ci əsrin əvvəllərində Mallarme, Bodler və başqa fransız simvolistərinin manifestlərinin təsiri ilə vüsət tapmışdır. Bu hərəkatın ortaya çıxması ilə ədəbiyyata estetik baxışların yeni istiqamət alması diqqəti cəlb edir. Bəziləri bu hərəkatı Konrad və Yits ilə bağlayırlar. Bəzi tədqiqatçılar isə modernizmin Birinci Dünya müharibəsindən sonra meydana çıxdığını yazır, Tomas Eliotun "İtirilmiş torpaq", Jeyms Joysun "Uliss" əsərləri ilə təzahür etdiyini söyləyirlər. Bəziləri isə bu hərəkatın başa çatma tarixini 1930-cu illəri, bəziləri İkinci Dünya müharibəsi illərini göstərirlər.

Modernizmi ədəbi cərəyan kimi qəbul etməyən tədqiqatçıların olması da hardasa anlaşılandır. Rus tədqiqatçılarından olan V.Dneprov 1975-ci ildə çap etdirdiyi məqaləsində bu məsələyə toxunur: "Artıq on illərdir burjuaziya tənqidçiləri belə fikri təsdiqləyir və bununla həmfikirdilər: "Əslində, heç bir "modernizm" mövcud deyil. Bunu marksistlər öz estetik konservatizmlərinə bəraət qazandırmaq üçün uydurublar" (56, 458).

Bununla belə, 1970-ci illərin ortlarına qədər ingilis dilli ədəbiyyatda modernizm sözü nadir hallarda işlənirdi. Amerika Ensiklopediyasında bu illərdə modernizm terminindən söhbət açılmır. 1980-cı illərə qədər isə bu sözün işləndiyi bir neçə kitab və məqalənin adını çəkmək olar. Sözün termin kimi işlədilməsində Amerika tənqidçisi Harri Levin böyük rolu olmuşdur. Tənqidçi "the modernist", "modernism", "the moderns writers" terminlərini dar və geniş anlamlarda işlətmişdir. Levinə görə, modernist yazıçılar müasir ideyaları təbliğ edirlər: "Əgər biz hamımız hələ də müasirliyə aidiksə, iddia edirəm ki, humanizm və

maarifçiliyin uşaqlarıyıq" (58, 329). Göründüyü kimi, tənqidçi müasirlik ilə maarifçiliyi, humanizmi eyniləşdirir. Ondan sonra Stiven Spender, Frenka Kermoud kimi tədqiqatçılar bu terminlərdən istifadə etməyə başladı. Modernizm ilk dəfə tədqiqat obyekti kimi Malkoma Bredberi və Makfarlena Ceymsi tərəfindən araşdırılmış, iri həcmli "Modernizm: Avropa ədəbiyyatına bələdçi" (57) adlı əsər çap olunmuşdur.

Cərəyan kimi formalaşan modernizm nəticəsində ədəbiyyatda, incəsənətdə, fəlsəfədə tarixi ənənələrdən uzaqlaşma müşahidə olunurdu. Bu ədəbi cərəyan müxtəlif sahələrdə – ədəbiyyatda, memarlıqda, sənətşünaslıqda, musiqidə yeni istiqamətlər üçün münbit zəmin yaratmışdır. A.Şopenhauer, R.Vaqner, U.Ceyms, Z.Freyd, A.Brekson, F.Nitsşe və digər filosofların fəlsəfi görüşləri modernizmin nəzəriyyə kimi vüsət tapmasına şərait yaratmışdır. Tədqiqatçı Əziz Mirəhmədov "modernizm" termininin I Dünya Savaşında və müharibədən sonrakı dövrdə ədəbiyyat və incəsənətdə ortaya çıxan qeyri-realist cərəyanların – futurizmin, akmeizmin, ekspressionizmin ifadəsi məqsədilə işlədildiyini yazır. O qeyd edir ki, modernistlərə V.Mayakovski, S.Bekket, F.Marinetti, V.Meyyerhold, E.İonesku kimi yazıçıları aid edə bilərik. Amma bunlar isə öz növbəsində siyasi baxışlarında kəskin fərqlənirlər. Bəziləri burjua tərəfdarı olsa da (Marinetti), bəziləri bu quruluşu inkar edirdi (Mayakovski) (15, 112-113).

Bununla yanaşı, onu da qeyd etmək lazımdır ki, Sovet dövründə fəlsəfədə və ədəbiyyaştşünaslıqda realizmi inkar edən modernizm tənqid hədəfinə çevrilmişdir. Mixail Lifşits, Maksim Qorki və başqaları modernizmin əleyhinə olmuşlar. Modernizmin kapitalizmi təbliğ etməsi, bu quruluşun mütləqləşdirilməsi fikrini irəli sürməsi və təbliği etirazlarla qarşılanmışdır. Kapitalizmin bərqərar olması isə modernizmin yenidən yaranması üçün şərait yaratmışdır.

Ernest Heminquey, Uilyam Folkner, Frans Kafka, Tomas Mann kimi yazıçıların əsərlərində modernist estetikanın təsiri özünü göstərir. Bununla belə, dünyaşöhrətli, istedadlı yazıçıların əsərlərini bir ədəbi metoda aid etmək mümkün deyil. Çünki onların yazıb-yaratdığı əsərlərdə müxtəlif ədəbi cərəyanın təsirləri duyulmaqdadır.

Bunu da unutmaq olmaz ki, modernizm anlayışı qeyri-müəyyən olub, bütün hər bir şeyi əhatə edə bilir. Bu cərəyan asosiallaşa bilir, bürokratik buxovlarda, qaragüruh fikirlərin ehtivasına uyğunlaşmır. Dinamikdir, daima hərəkətdədir və yenidir. Bu cərəyanda estetikasında həqiqətin, gerçəkliyin yeni qavrayışı ön plana gəldi.

Bunu da unutmaq olmaz ki, modernizm hər bir halda ənənəvi modelə radikal mövqedə dayanır. Bununla belə, yeniləndikcə də yenini qəbul etməyi, köhnələnləri isə ənənəvilər sırasına qoymağı bacarır.

Yeni qaydalara, xüsusiyyətlərə sahiblənirdi. Bu da modernizmin fərdiliyindən irəli gəlir. Ağır həyat şəraitini, mürəkkəb hadisələri, qəliz, anlaşılmaz vəziyyəti, yeni dünyanın insanlarının qeyri-ənənəvi qaydalarda, tərzlərdə, formalarda əks etdirmə, gündəmə yeni baxış bucağından, dünyaya yeni aspektdən baxma zəruriyyətindən əmələ gəlmiş tapıntılarla tarixiliyin inkarı çulğalaşır. Bu cərəyanın "müasirlik layihəsi", "yenilik layihəsi" bu səbəbdəndir. Nəzəri-estetik prinsipi kim başlıca cəhət irqi, dini ideoloji sərhədlərinin olmamasındadır. Müstəqil şüur, mütləq dəyərlərin ləğvi də bu cərəyan üçün mühimdir. Bu yeniliklər ədəbiyyatda yeni bədii təsvir və ifadə vasitələrinin də yaranmasını zəruri edir.

Müasir cəmiyyət anlayışının hansı elementlərlə doldurulduğunu, modernləşmə nəzəriyyəsinə düzgün və sağlam yanaşmaq lazım olduğunu ortaya qoyur. Bu anlayış müəyyən bir insan növünü, insanla təbiət və insanla insan arasındakı əlaqənin müəyyən bir anlayışını, müəyyən iqtisadi münasibətlər sistemini, nəhayət, onların cəminin təşkil etdiyi sosial və iqtisadi təməl üzərində inşa edildiyi düşünülən bir siyasi quruluşu bildirir.

Modernizm 20-ci əsrə məxsus olan ədəbi cərəyan kimi qəbul edilsə də, izləri çox qədimlərə gedib çıxır. Klassik əsərlərimizə, qədim və orta dövr ədəbiyyata nəzər salsaq, modernizm izlərini görə bilərik. Sufilik ideyalarını irəli sürən Cəlaləddin Rumi yaradıcılığında "yenini yaratmaqdan ötrü köhnəni dağıtmaq lazımdır. Taxıl üyüdülümədən çörəyi işirə bilmədiyimiz kimi modernizmdə də köhnəliyi inkar etmədən yeniliyi qazana bilmərik.

Qədim və orta əsrlərdə yazılan əsərlərdə bu izləri görmək olar. Məsələn, Cəlaləddin Ruminin "yenini yaratmaq üçün köhnəni dağıtmaq gərəkir, necə ki taxıl üyüdülmədən çörək bişməz" cümləsi modernizmin qayəsini təşkil edən "köhnəliyi inkar edən yenilik" ideyası ilə səsləşir:

"Bu sözü yaxşıca anlatmaq, açmaq lazımdır, fəqət köhnə düşüncəlilərdən, onların köhnə anlayışlarından qorxuram. Məhdud çərçivədə olan köhnə anlayışlar fikrə yüz cür pis fikirlər gətirir" (54, 186).

Amma bu fikirlərdə köhnə tamamilə inkar edilmir. Hər yeniliyin arxasında bir köhnəlik, özəyində ənənəvilik var. Necə deyərlər, biçilən zəminin taxılının üyüdülmüşündən çörək hazırlasaq, bu onun taxıllığını inkar etməz, sadəcə şəklini dəyişmiş olur.

Belə ki, taxıl una çevrildiyi kimi modernizmdə də ənənələr yenilərlə əvəzlənir. Amma unutmaq olmaz ki, ənənələr tamamilə itə bilməz. Taxıl una çevriləndə tərkibi qaldığı kimi, köhnələr də yenilərlə əvəz olunanda öz mahiyyətini tamamilə itirmir.

XIV əsrə aid edilən "Oğuznamə" əsərində rast gəldiyimiz "İnkar mübarəkdir" fikri də modernizmin qayəsi ilə səsləşir. İnkar yüksəlişin açarı, yeniliyin əlifbasıdır.

Köhnəliyi inkar edən, ənənələri üstələyən modernizmin əsasını təşkil edən yenilikləri köksüz, arxasız hesab etməyimiz də yanlışdır. Belə ki, müasirlik keçmişin dəyərlərinə söykənərək, ənənələrin üzərində yaranaraq inkişaf etdiyi kimi modernizm də tarixiliyə söykənir, sadəcə yeni quruluş alaraq və fərqli ifadə vasitələri ilə formalaşır. Umberto Eko modernizmin nəzəri-estetikasından danışarkən bir çox məsələlərə toxunur. O, qeyd edir ki, dəyişir, ilk gündən də etiraz edir. Bu etiraz köhnəliyə qarşı yönəlir. Modernizmi biz çağdaş ədəbiyyatın metod və metodologiyası kimi də qəbul edə bilərik.

Unutmaq olmaz ki, modernizm müsbət şeyləri alqışlayıb mənfiləri inkar edir. Mənfiləri inkar etdikcə isə müsbət yeniliklər ortaya çıxır.

Məsələnin önəmli tərəfi kimi unutmaq olmaz ki, ənənələrdə yaşayan mənfiliklərin tənqidi və inkarı, qəbuledilməzliyini dəstəkləyən modernizm müsbət

olanları təsdiqləyir, öz yeniliklərini bu müsbətlərin üzərində qurur, yaşadır. Bu yeniliklərin fərdi yaradıcılıqda fərqli istiqamət alması da modernizmdə zənginliyə yol açır. Bu səbəbdən də modernizm fərdi yaradıcılıq üslubunu dəxtəkləyən cərəyan kimi qiymətləndirilməlidir.

Modernizm müxtəlif meylləri özündə cəmləşdirir. Hətta XX əsr ədəbi tənqidini də modernizmin bir qolu kimi hesab edənlər az deyildir. Müəyyən dövr keçdikcə zamansızlığı, subyektləşdirilən zamanı özündə ehtiva edən modernizmdə sərhədlər götürülür, insan iradəsi Allaha can atırdı. Müəyyən vaxt keçdikcə modernistlər ədəbi formaları yeniləyir, sərhədlərini genişləndirir, yeni estetikanı yaradırlar. Bu axtarış XX əsrdə yeni ənənələrlə yazılan əsərlərin sayının artması ilə nəticələndi.

Amerika tənqidçisi İrvinq Babbit modernizmdən bəhs edərkən onu romantizmlə müqayisə edərək yazır ki, XIX əsr ədəbiyyatında, sənətşünaslığında yeni əhval-ruhiyyə özünün göstərmişdir. Bu sənət əsərlərində pozitivlik, nikbinlik hakim kəsilir: "Müasir ruh pozitiv və tənqidi ruhdur, səlahiyyətləri almaqdan imtina edən ruhdur"(67). Eliot və Vulfun məqalələrində də görürük ki, bu əhval-ruhiyyə geniş vüsət alaraq ədəbiyyatda, incəsənətdə romantiklərin "təxəyyül" adlanan irrassional məfhumunu azaltdı. Eliotun modernizmi sərt, quru ifadələrin məhsulu adlandırır: "Yorğun, taqətsiz əllər dənizin dibini eşir" (69) - cümləsindəki metaforalar sərt, vasitəsiz ifadəsini izləməyimizə şərait yaradır. Modernizm həm də realizmə etiraz edir.

Bu cərəyanının nümayəndələri düşünürlər ki, dünyada nizama salınmış, məntiqli, təbii, dolğun, sıralanmış, səhmana salınmış məkan yoxdur. Modernistlərə görə, təzə poetik ifadələrlə yeni dünyalar yaranır. Modernizmin təzahür xüsusiyyətləri kimi avanqardizmi, kubizmi, sürrealizmi, abstraksionizmi, impressionizmi, pozitivizmə, irrasionallığa meyilliliyi, ehkamların dəyişdirilməsini, mövcud ənənələrin dağıdılması və ya onlara yeni dəyərlər yüklənməsini, klassik dəyərlərin bərpasını və başqa əlamətləri göstərmək olar.

Modernist əsərin qəhrəmanı da ənənəvi obrazlara bənzəmir. O, modern dünyaya və onun yeniliklərinə uduzmuş, iç dünyasına qapanmış bir qəhrəman,

daxili, mənəvi dünyasını ön plana çəkən protaqonistdir. Bu personaj həyəcan və yaşantıları ilə bütövlük təşkil edir. Ənənəvi qəhrəman kimi seçilmiş deyil, adidir.

Bu əsərlərdə hadisələr xətti şəkildə, ardıcıllıqla davam edən zaman anlayışı ilə baş vermir. Modernizm vaxtaşırı özünü ədəbiyyatda və sənətdə göstərən durğunluqdan baş qaldırma cəhdidir. Modern düşüncə tərzində də inkişaf sabit düz xətlə getmir. Yəni əvvəlkindən istər düsüncə tərzi, istər sintaktik duyum, istərsə də dünyabaxışı ilə fərqlənir.

Modernizmdə dəyişilmə və dəyişdirmə mövcuddur. Modern düşüncə insanı xoşbəxt edəcəyinə inandırır.

Bu cərəyana məxsus əsərlərin forma qatında inkarçılıq özünü göstərir. Məsələn, poeziyada şair poetexnik elementlərdən imtina edərək ritmə köklənir.

Söz açdığımız cərəyan bədii yaradıcılıqda özünəməxsus bədii təhkiyəyə malikdir. Bu konsepsiya daxilində fərdiyyətçilik özünü göstərir, məzmun formaya "qurban verilir". Modernizm həyata, mövcudluğa fərqli yanaşır. Bu cərəyanın bütün janrlarının nümunələrində detala üstünlük verilir, zaman, hadisə, məqam təfərrüatı ilə əks edilmir. Modernistlər sosial problemləri arxa plana keçirir, bunları psixoloji, fəlsəfi fikirlər fonunda verirlər.

Bundan başqa, modernizm cərəyanına aid olunan əsərlərdə ənənəvi problemlərə qeyri-ənənəvi yanaşılır, yazıçı və ya şair yeni sirlər axtarır, mənəvi dərinliklərə baş vurur, öz qəlbi ilə digər qəlblər arasında bağlılıq yaradır.

Romantiklər hər şeyin yaxşı olanlarını, naturalistlər dünya və onun nəsnələrinin surətlərini, realistlər nöqsanları təsvir etdiyi halda, modernistlər fərdin individual düşüncə tərzini əks etdirirlər.

Modernizmi realizmə olan üsyan kimi yox, ənənəvi mövcudiyyata təzyiq kimi başa düşmək olar. Necə deyərlər, modernistlər dünyanın fırlanmasına və ya suyun axmasına qarşı deyil, ona baxış bucağının dəyişməyini təlqin edirdilər.

Modernistlər, demək olar ki, hər şeyin əleyhinə çıxırlar. Yaratdıqları yenilikləri də zamanla qəbul etmirlər. Onlar daima yeni hədəf axtarışında, inkişafdadırlar. Ənənəvi sənətə etiraz edən modernistlərə görə, hər şey tamamilə düzələ bilməz, onlar tərəqqinin olacağına inanmırlar. Bununla belə, modernizmi həyatın obrazlı

ifadəsi adlandıra bilərik. Hər zaman yenilik tələb etdiyi üçün bu cərəyan bitmir, tükənmir, sanki cərəyan daima doğur, törəyir.

Modernizm cərəyanını əhatə edən nümunələrdə ritm və ahəgdarlıqla xaos həmahəngdir: dərklə sıçrayış, melodiya ilə nizamsız taqqıltı və s. Modernizmin başladığı andan sükut pozulur, düşüncələr sürətlənir, yeknəsənglik pozulur, xoş canlılıq yaranır.

Modernizm konsepsiyasında ilk sırada "maariflənmə" yer alır. Tərəqqi, ağıl və pozitivlik kimi dominant ünsürlər tərəfindən müəyyən edilmiş maarifçilikdən başqa bu prosesi ortaya qoyan "intibah", "islahat", "dünyəvilik" kimi prosesləri, ona paralel və ya əks olan prosesləri də başa düşmək lazımdır.

Əsas arqumenti həqiqət, estetika və ədalət məsələlərində mütləq həqiqəti proqnozlaşdırmaq olan modernizm Avropa mərkəzli bir mənbəyə uyğundur. Avrosentrik düşüncə, əsasən, insan icmaları arasında iyerarxik təsnifata əsaslanır.

Modernizm poeziyada çox zaman sərbəst şeirin sərhədləri çərçivəsində özünü göstəririr, bəzən bu sərhədləri də aşır. Necə deyərlər, modernizm ənənəvi şeirin qırılmaz zəncirlərini, möhkəm qəliblərini belə sındırmağı bacarır. Ənənələrdən fərqli olaraq modernizm dağıtmağa da, dəyişməyə də meyilli olub öz həqiqətlərini üzə çıxarmağı bacarır. Həmin proseslər modernist şairin ruhunda cərəyan edir. Modern şeir hər zaman millilikdən, təbiətdən qopmanın, sıyrılmanın ifadəçisi olmuşdur. Ənənəvi olana daxili müxaliflik sərgiləyən modernizm sözü də, ifadəni, də, təsviri də dəyişməyə nail olmuşdur. Şeirdəki təsvirlər daha canlı və rəngarəng olmuşdur.

Bütün sadaladığımız xüsusiyyətlər modernizm üçün səciyyəvi cəhətlərdir. Lakin bəzən yanlış olaraq ədəbiyyat anlayışının məğzindəki spesifikliyi də modernizm hadisəsi kimi səciyyələndirirlər. Tədqiqatçı və yazıçı Qan Turalı bu məsələyə aydınlıq gətirərək qeyd edir: "Modernizm əvvəlki kollektivçi şüura qarşı bir fərdi qoyurdu və göstərirdi ki, hər bir fərdin öz dünyası var, bu fərd cəmiyyətin mental düşüncə və həyat tərzinə qarşı idi. Bu yanaşma bizim Azərbaycan sovet yazıçılarının da əsərlərində yetərincə hiss olunmaqdaydı, əlbəttə, bu modernizm səciyyəsi deyil" (69).

Beləliklə, modernizmi XX əsr sənətşünaslığının, ədəbiyyatşünaslığının, mədəniyyətşünaslığının geniş, qarışıq, irrasional məzərəsinə hakim kəsilən, köhnəliyi inkar edərək yeniliyi dəstəkləyən məntiqi, estetik cərəyan kimi qəbul etmək olar. Bu cərəyanın poetik obrazları, eləcə də ifadə və təsvir vasitələri oxucuda struktur hissləri yaradır, yeni bir sənət əsəri meydana gətirir. Meydana gəlmiş həmin sənət əsəri isə yeni zəmin yaradaraq itmiş, yoxa çıxmış əlaqələri bərpa edir.

## 1.2. Azərbaycan ədəbiyyatında modernizmin yaranması

Müəyyən bir cərəyanın formalaşması və inkişafında hansısa tarixi hadisələr təkan rolunu oynamışdır. Modernizmin də hər hansı bir xalqın mədəniyyətində, incəsənətində, ədəbiyyatında təşəkkül tapmasını şərtləndirən əsas səbəb dövrün prosesləri, ölkədə baş verən hadisələrdir.

Bəzi araşdırmaçılar Azərbaycan ədəbiyyatında modernizmin izlərini XIX əsr əsərlərində axtarırlar. Mirzə Şəfi Vazehin, Həsən bəy Zərdabinin, Mirzə Fətəli Axundovun əsərlərini Azərbaycan modernizminin başlanğıcı hesab edən araşdırmaçılar bu cərəyanın formalaşıb dərinləşməsini bir sıra obyektiv amillərlə bağlayırlar. Azərbaycan xalqının imperiyanın tərkibində olması, bu tərkibdə olan digər xalqların inkişafı ilə ayaqlaşma istəyi və s.

XX əsrin əvvəllərində Cəlil Məmmədquluzadənin, Sabirin, "Əkinçi" qəzetindən təşəkkül tapan mətbuatın – "Molla Nəsrəddin" jurnalının ədəbiyyatımıza gətirdiyi yeniliklər, din və adətlərin aşıladığı düşüncə tərzi modernizmin formalaşması üçün zəmin yaratdı. Bu yeniliklər özünü bütün sahələrdə – əlifbada, geyimlərdə, hətta siyasətdə də göstərdi. Azərbaycan Demokratik Respublikasının əsasının qoyulması modern düşüncəsinin zəfəri kimi qiymətləndirilə bilər. Lakin modernizmin yaranması prosesi XIX əsrin sonu-XX əsrin əvvəllərini əhatə etsə də, sonradan davam etməmişdir. Bu durğunluq XX əsrin sonlarına qədər sürmüşdür.

SSRİ-nin dağılma prosesində postsovet ölkələrində dəmir qadağalar yumşalmağa başlamışdı. Bu "yumşalma" özünü bütün sahələrdə özünü göstərdi. Azərbaycanda nəşr olunan ədəbi əsərlər içərisində Avropa və Amerika ədəbiyyatına da geniş yer verilməsi oxucuları, eləcə də yazıçıların modernizm nümunələri ilə tanışlığına səbəb oldu. Bu prosesdə yazıçılar modernizmə məxsus əsərləri təqlid etməyə və ya bu cərəyanın hansısa qaydalarından özünəməxsus şəkildə istifadə etməyə başladılar. Beləliklə, XX əsrin əvvəllərində yaranan modernizmin Azərbaycanda formalaşması 1990-cı illərdən sonraya təsadüf etdi. Lakin Azərbaycan ədəbiyyatında, eləcə də poeziyasında modernizm bir epoxa, cərəyan kimi formalaşa bilmədi. Modernizm əsərlərin formasında, məzmununda, strukturunda müəyyən qədər özünü göstərdi. Tənqidçi Vaqif Yusifli də modernizmin Azərbaycanda cərəyan kimi formalaşa bilmədiyini yazır: "Azərbaycan poeziyasına gəldikdə**,** modernizm bir cərəyan kimi deyil, yalnız bir təmayül kimi mövcud olmuşdur" (51, 340).

Akademik Nizami Cəfərov Azərbaycan ədəbiyyatında bu cərəyanın başlanğıcını 1970-80-ci illərə aid edir. O, bunu iki tendesiya ilə bağlayır. "Onlardan biri Rəsul Rzanın yaratdığı modernist-eksperimental məktəb, digəri isə, Səməd Vurğunun rəhbərlik etdiyi ənənəvi məktəb idi" (63). Vaqif Yusifli də ilk modernist şair kimi Rəsul Rzanı qəbul edir.

Akademik İsa Həbibbəyli də Azərbaycan modernizmini milli-mənəvi dərkə qayıdış və milli istiqlal kimi dəyərləndirir. Tədqiqatçıya görə, milli-mənəvi özünəqayıdış XX əsrin 60-cı illərində özünü göstərmişdir. İ.Stalinin ölümü, N.Xruşşovun hakimiyyətə gəlməsi ilə şəxsiyyətə pərəstişliyin bitməsi modernizmin yaranması üçün şərait yaratdı. Vaqif Yusifli isə modernizmin başlanğıcının bu dövrə aparılmasını düzgün hesab etmir. Onun düşüncəsinə görə, 60-cı illərdəki modernizm, xüsusilə poeziyada eksperiment səciyyə daşıyırdı (51, 348). Bu eksperimentçilik isə müxtəlif sahələrdə heç də birmənalı qarşılanmadı. Həm oxucular, həm yazıçılar, şairlər, sənətşünaslar üçün bu, bir yenilik idi. Poeziyada yeniliklər edən şairlər bu prosesin necə vüsət tapacağını bilmirdilər.

Azərbaycan ədəbiyyatında ilk modernist meyllərin ortaya çıxdığı zaman kəsiyində başqa ədəbi qrup belə mövcud deyildi. Bu boşluq bizim ədəbiyyatımızda modernizmin kök salması ilə nəticələnə bilərdi. Lakin bu hal müşahidə olunmadı. Sosial-siyasi zəmində yaranan modernizm açıq ortaya çıxmadı, əksinə, sovet dövründə poeziyanın alt qabığında özünü gizlətdi. Avanqardçıların da çıxışlarında açıq şəkildə modernizmi duya bilirdik. Məhz bu xüsusiyyətinə, yəni təmkinliliyinə görə avanqarddan fərqlənirdi.

SSRİ-nin dağılması ilə modernizm yeni mərhələyə qədəm qoydu. Bu, "neomodernizm" mərhələsi 1990-cı illərə aiddir.

Qərb ədəbiyyatının təsiri ilə formalaşan modernizmin estetik prinsipləri ilə yerli  milli-idealist fəsəfi düşüncələrin, eləcə də yazıçıların fərdi psixologiyasının sintezi nəticəsində yeni bir ədəbi cərəyan təşəkkül tapdı.

Əvvəlki ədəbi nəsillərdən fərqli olaraq, ədəbi əsərlərdə təkcə ağa-kəndli münasibətlərini, sinfi-ideoloji mübarizələri, insanların gündəlik qayğılarını, reallıqları təsvir olunmurdu. Yazıçılar nəsri nağılçılıq, əfsanəçilik, rəvayətçilik, dastançılıq rasionallığı və estetikası kimi kanonlardan ayırmağın önəmini irəli sürür, eyni zamanda bunları irrasionallığa, metafizik qata keçirməyə, ənənəvi təhkiyə metodları ilə müasir düşüncə formalarını birləşdirməyə cəhd göstərirdilər. Tarixi mövzulara müraciət edərək xalqın keçmişini bugünün diliylə, yeni ədəbi üsulla və estetik yazı texnikasıyla  danışdırmaq istəyirdilər. Onların məqsədi köhnə tipli nəsri, ənənəvi təhkiyəni yıxmaq deyil, zamanın tələbinə uyğun yeni mövzu və bədii-estetik formalar yaratmaq idi. Beləliklə, Azərbaycan nəsrində  modernizm və realizm paralel addımlamağa başladı.

Modernizmin Azərbaycan ədəbiyyatına qədəm qoyması ilə nəsrdə, eləcə də dramaturiyada da özgələşmə meyli, bu anlayışın konseptual təlim kimi yaranması da özünü göstərdi. XX əsrin 60-70-ci illərində ədəbiyyatımızdakı məşhur ədəbi nəslin bütün yaradıcılığında olmasa da, əsərlərindəki bəzi süjet və hadisələrdə özünü göstərən özgələşmə elementləri 1980-ci ildən sonra ərsəyə gələn bədii nümunələrdə daha geniş vüsət aldı. Azərbaycan nəsrində modernizmdən bəhrələnən yazıçılara Anarın, Elçinin, Sabir Əhmədlinin, Yusif Səmədoğlunun, İsi

Məlikzadənin, Mövlud Süleymanlının, Afaq Məsudun, Fərman Kərimzadənin və başqalarını nümunə göstərə bilərik. Dramaturgiyada isə Əli Əmirli, Ramiq Muxtar, Firuz Mustafa kimi yazıçıların adlarını çəkə bilərik. Özgələşmə (yadlaşma) modernizmin bir elementi olduğu üçün bu problemin toxunulduğu bədii nümunələr Azərbaycan ədəbiyyatında azlıq təşkil edir.

60-70-ci illərdəki nəsrdə artıq yadlaşma, fərd və cəmiyyət qarşılaşması üz-üzə dayanır, obrazlar sosial həyata uymur, yeni ədəbi qəhrəmanlar meydana çıxırdı. "Müqavimət", "etiraz" ədəbiyyatı yaranırdı. Artıq yavaş-yavaş cəmiyyət fəlsəfəsi dekadansla əvəz edilir, "Qətl günü" (Y.Səmədoğlu"), "Əlaqə" (Anar) kimi əsərlər yazılırdı. Elçin, Afaq Məsud, İsa Muğanna, Sabir Əhmədli kimi yazıçıların əsərlərində eksiztensializmin, magik realizmin, "Kafka situasiyaları"nın təsiri aydın duyulurdu. Bunları milli modernizm hadisəsinin başlanğıcı kimi qiymətləndirə bilərik.

1970-80-ci illərdə nəsrimizə gətirdiyi yenilikləri məşhurlaşan yazıçılardan da biri Mövlud Süleymanlı idi. Onun yaradıcılığında özgələşmə meyilləri özünü göstərirdi. Bu meyillər müxtəlif aspektlərdə əks olunur. Məsələn, yazıçının "Dəyirman" əsərində bu yadlaşmanı mifoloji və tarixi yöndə görürük. Bundan başqa, əsərdə sarkazm da duyulmaqdadır. Mövlud Süleymanlı Sovetin içərisində baş verən prosesləri əsərə köçürür. O dövrdə yazılan əsərlərdən fərqli olaraq, bu povest “rejimin üzünə vurulmuş şapalaq” idi (47,7). Povest həmin dövrdə ədəbiyyat sferasında səs-küyə səbəb olmuş, bir çox tənqidçilərin hədəfinə tuş gəlmişdir. Yazıçı bütləşmiş ənənələri, toxunulmazlıqları sındıra bilmişdir. Lakin bunu qərəzli deyil, təbii şəkildə, gördüklərini qələmə alaraq etmişdir: "Yarımçıq-yarımçıq, çeynənmiş-çeynənmiş sözlərlə namusdan danışan var idi, əl var idi, başının üstündə pul silkələyirdi. Kəsilən toğlulara, bişən kabablara, əllərdə oynayan pullara, qadın söhbətlərinə açılıb-acıxan gözlər iyirmi-iyirmi beş üzdən yox, iyirmi-iyirmi beş dəri yüzlükdən baxan kimi baxırdı. Ciyər kababının qarasından hamı burnunun ucuna kimi ləkəliydi, amma heç kim burnunun ucundakı ləkəni görmürdü" (47,186). Bundan başqa, əsərdə yeni bədii ifadə və təsvir vasitələrinə rast gəlinir, bu da oxucuda maraq doğurur. Bacanın süd

əmməsi, Günəşin işığını sorması, sözlərin sınıq-sınıq, cümlələrin yarımçıq-yarımçıq olması oxucular üçün də, ədəbiyyatşünaslıq üçün də yenidir. Məhz bu yeniliyi qəbul etməyən ənənəçilər "Dəyirman"ı tənqid edirdilər.

1990-cı illərdə Azərbaycanın siyasi vəziyyəti nəsrə də öz təsirini göstərirdi. Ölkədə baş verən ictimai-siyasi hadisələr Azərbaycan nəsrində təsvirini sürreal, fantasmaqorik, absurd bir həddə çatdırırdı. Lakin bu dövr qısa sürdüyü üçün sadaladığımız düşüncə sistemləri inkişaf edə bilmirdi. Anar milli fərdin ekzistensiyasında yaradıcılığını davam etdirir, "Otel otağı" kimi əsərlər yazırdı. Elçinin yaradıcılığında absurd-pyeslər artırdı. Sabir Əhmədli isə Qarabağ müharibəsi mövzusuna üstünlük verir, yeni əsərlər yaradırdı. Ümumilikdə isə, ədəbiyyatda durğunluq müşahidə olunurdu.

Bu dövrdə modernizm elementləri ilə yazan yazıçıların çoxu sonradan realizmə keçsə də, çevik forma, maraqlı dil texnikası tapan, müxtəlif üslubları sintez edib sınaqdan keçirən, öz ədəbi düşüncəsinə, modernizm ənənələrinə sadiq qalan bir neçə yazıçımızın – Sadıq Elcanlının, Orxan Fikrətoğlunun, Məqsəd Nurun və başqalarının adlarını çəkə bilərik.

Azərbaycan poeziyasında da eyni mərhələ – "yenidən oyanış" başlamışdı. Hətta poeziyada hələ formalaşıb bitməyən, tamamlanmayan modernizm dalğası yeni - ikinci dalğa ilə birləşdi, lakin epitaj xarakterli deyil, "durğun", "səssiz" inkar biçimində üzə çıxdı. Tənqidçi Rəhim Əliyev bu barədə yazır: "Qafiyəsiz və ya sərbəst şeirə ədəbiyyatda modernist eksperimentçiliyin bir qolu kimi baxmaq olar" (18, 18). Tənqidçi modernistləri iki qrupa ayıraraq, müəyyən bir hissəni yaradıcılıq, islahatçılıq tərəfdarı kimi hesab etsə də, onları tələskənlikdə günahlandırır. İslahat və eksperimentçiliyi onların çılpaq bir məqsədi kimi qiymətləndirərərək, həmin modernistləri ədəbi tərəqqidə katalizator kimi hesab edir. Tədqiqatçıya görə, Azərbaycan ədəbiyyatında modernistlərin iz qoya bilmir, onların poeziyada yer tutan şeirləri yoxdur. Tənqidçinin bu fikrini inkar edərək söyləyə bilərik ki, poeziyamızda iz salan xeyli sayda şairlər – R.Rza, Ə.Kərim, X.R.Ulutürk, F.Sadıq, V.Bayatlı, R.Rövşən kimi müasirlərin şeirləri yaddaşlara

həkk olmuşdur. Hətta biz modernizmdən doğan inkarı, "qarşı çıxma"nı keçmiş proses adlandıra bilərik.

Müasir poeziyamızda yeniliklər, novatorluqlar öncə formada, sonra isə mətnin məzmununda, məna sferasında, strukturunda özünü göstərdi. Azərbaycan nəsrindəki kimi şeiriyyatında da modernist - eksperimental yaradıcılıq meyilləri tarixi modernizmi təkrar etdi, buna görə də modernist-eksperimentalizm yox dərəcəsindədir.

XX əsrin sonlarında şəhər həyatının genişlənməsi şeir dilində də kəskin dönüşlər yaratdı. Bu prosesi tədqiqatçı Yaşar Qarayev daha öncələrə – 1960-cı illərə apararaq yazırdı ki, bu dövrdəki ədəbiyyat heç vaxt mövcud rejimlə razılaşmamış, mövcud sistemə müxalif olmuş, haqsızlıqlara sinə gərmiş, demokratiya üçün çalışmış, fəal iştirak etmişdir ( 23, 512).

Azərbaycan poeziyasında modernizmi axtararkən bir sıra xüsusiyyətləri qeyd etmək lazımdır:

1. Digər xalqların şeir formalarından istifadə edərək forma yeniliyinin yaradılması;

Dünya ədəbiyyatı tarixində antik, tonik, sillabik, tonik-sillabik, əruz, sərbəst şeir mövcuddur. Sərbəst şeir modernizm üçün daha uyğundur. Dilin daxili qanunlarına uyğun olaraq, Azərbaycan poeziyasında modernistlər sərbəst şeir daxilində digər vəznlərə müraciət edir, yeri gəldikcə, əruzun və ya hecanın formasına sərbəst şeiri yerləşdirir, sığdırmağa çalışırlar.

2. İnkar motivinin və inkarlıq ənənələrinin bir neçə istiqamətdə meydana gəlməsi;

Ənənələri inkar edən, ənənəvi formalardan iimtina edən modernistlər yeniliklərdən istifadə edir, yeri gəldikcə ənənəvi formalara yenilik libası geydirirlər. Hətta poeziyamız üçün yeni olan sərbəst şeir də müasirləşdirməyə, yeniləşdirməyə çalışır, poetexniki elementlərdən - qafiyədən imtina edərək şeiri daha çox ritmə meylləndirirlər.

3. Sınaqdan keçirilmiş təsviri şeir effektərindən yararlanaraq yeni bədii ifadə və təsvir vasitələrinin yaradılması;

Modernist üslubda yazan şairlər eksperimentlər edərək yeni bədii təsvir və ifadə vasitələri yaradırlar.

4. Çevik dil qaydalarına, dil oyunlarına riayət edilməsi;

Azərbaycan dilinin söz bazasından istifadə edərək söz oyunları qururlar.

5. Durğu işarələrini semantik anlamda canlandırmaq və lazım gəlsə imtina edilməsi;

Modernist üslubda yazılan şeirlərin əksəriyyətində dil qaydalarına riayət olunmur, misralar kiçik hərflə başlayır, durğu işarələrindən istifadə olunmur.

6. İnsanın şüuru ilə alt şüuru arasında bağlantı qurmaq və bundan istifadə edilməsi;

Şairlər şüurla təhtəlşüur arasında bağlılıq qurur, özünütəlqin hislərini də aşılamağı bacarırlar.

7. İnkar və tənqidin avanqarddakı çığırtı və epatajın, postmodernizmdəki kinayə və ironiya deyil, təmkinlə edilməsi;

Modernistlər hər hansısa tənqid etmək istədiyi məsələni ifşa etmir, əksinə, hər bir halı açır və müqayisə edərək oxucuların öhdəsinə buraxır.

8. "Mən"in qabardılaraq fərdi hislərin ön plana keçməsi;

Bu şeirlərdə poetik qəhrəman ön planda tutulur və "Mən" qabardılır. Nəsimi fəlsəfəsi ilə müəyyən qədər səsləşir.

9. "Təbiət" və "mən" arasında daxili özgələşmə;

Bu şeirlərdə poetik qəhrəman mövcud cəmiyyətə, duruma, təbiətə özünü yad hesab edir.

10. Milli hislərlə kosmopolit düşüncənin çulğalaşması;

Şair milli düşüncədən özünə lazımlıları götürüb dünyəviləşdirir.

11. "Allah-Yaradan mənəm" ideyasının aktuallaşması;

Bu ədəbi baxışla insan Allahı tapır, onunla yaxınlaşır, daxilindəki Tanrını görür, ona suallar ünvanlayır, bəzən tərifləyir, bəzən tənqid edir. Bu münasibət sufizmdə olan İlahi məqam fəlsəfəsi ilə səsləşir. Ümumiyyətlə, insani tənhalıqla Tanrı tənhalığı şeir düşüncəsi üçün təzə deyil. Amma modernizmdə bu tənhalıq insana "Allahın allahı olmağa" icazə verir, bu ifadə şeirdə yenidir.

Sadaladığımız bu xüsusiyyətləri Azərbaycan modernist poeziyası üçün spesifik cəhətlər kimi hesab edə bilərik. Onu da nəzərdən qaçırmaq olmaz ki, modernizmdə yazılan hər şeirə spesifik forma məxsusdur: "Hər ayrıca sərbəst şeirin öz spesifik forması vardır və yeri gələndə tənqid bu formanı təhlil etməlidir"(18,18). Forma müxtəlifliyi isə yazılan şeirlərin məzmunu ilə şərtlənir. Bu səbəbdən də modernist poeziyada formanı öyrənərkən formayaradıcı vasitələr də tədqiq olunur.

Azərbaycan poeziyasında modernizmdən danışarkən onun iki dalğasının olduğunu unutmamalıyıq. Şərti olaraq bunu iki mərhələyə ayıra bilərik:

Birinci dalğanın başlanması 1960-cı illəri əhatə edərək Rəsul Rzanın, Ələkbər Salahzadənin, Fikrət Qocanın, Vaqif Səmədoğlunun, Ramiz Rövşənin, Vaqif Cəbrayılzadənin, Əli Kərimin və başqalarının yaradıcılığında modernizmi üzə çıxartdı. Artıq 90-cı illərin başlanğıcında modernizmin ikinci dalğası gəlməyə başladı. 1990-cı illərdə meydana bu dalğa Avropa modernist cərəyanların poeziyaya axınını şərtləndirdi. Zahir Əzəmət, Qulu Ağsəs, Zahir Əzəmət kimi şairlər bu cərəyan axınına düşdülər. Modernizmi əsas götürən şairlərin mövzuları da rəngarəngliyi ilə seçildi. Araşdırmaçı V. Yusifli bu mövzuları da iki cür qruplaşdırır: "1.İnsan, dünya və kainat haqqında mistik-fəlsəfi düşüncələri əks etdirən şeirlər (Xanəmir, Zahid Sarıtorpaq); 2. Həyat, ölüm, varlıq-yoxluq, dünyanın gərdişi, insanın təbiətlə, yaşadığı yurd, vətən barədə düşüncələrini əks etdirən şeirlər (51, 362-381).

Avanqard poeziya kimi modernizmdə də sərbəst şeir forması daha çox işlənir. "Bilavasitə məzmunla bağlı azad, sərbəst, təbii forma axtarışları sərt ritmdən sərbəstlik və normativ qafiyədən sərbəstlik demək idi. Bu ilk mərhələ ritmin və qafiyənin ənənəvi dairəsini genişləndirmək, sonrakı mərhələlərdə isə vəzndən və qafiyədən tamamilə imtina etmək idi" (44,68).

Avanqard poeziyadan fərqli olaraq, modernist-ekperimental poeziyada daxili qafiyə və ritm üzə çıxır. Nümunə olaraq modernist-eksperimental poeziyanın nümayəndələrindən olan Çingiz Əlioğlunun şeirinə nəzər salaq:

qara fincan qəhvə qabı həzin soba yumaq pişik
miz üstündə mürgüləyir ağ telefon (49,10)

Birdən-birə gözümüzdə bir otaq canlanır. Şeirdə telefonun təsvirinə rast gəlirik. Telefon kimi bir əşyanın poetikliyi ədəbiyyatşünaslığımız üçün yenidir. Şair telefonu qıvrılan pişiyə oxşadır. Telefonun zəngi isə azman qaya zərbəsinə bənzədilir. Otaqdakı digər əşyalar da poetik dillə ifadə olunur.

Verilən nümunədə modernizmin yuxarıda sadaladığımız səciyyələrinin bariz nümunələrini görürük. Şair ekperiment etməkdən çəkinmir. Şeirdə qəsdən dil qaydalarına riayət olunmur, durğu işarələrindən istifadə edilmir. Çevik dil özünü göstərir, bununla yanaşı, qafiyə və ritm qorunur, ənənəvi təsvir vasitələri ilə orijinal koloritlər birləşir. Azərbaycan modernizminin "birinci"lərindən hesab etdiyimiz Rəsul Rza poeziyasında da eyni struktur özünü göstərir:

Dərədə boy, lalə, yemlik.
Təpələrdə kəkotu.
Yol kənarında hündür dirəklər;
qırıla bilən tellərlə bir-birina bağlı.
Kənd.
Mağaza (35,88).

Nümunədə verdiyimiz bu misralar heç bir məna ifadə etmir, söz yığını kimi görünür. Şeir sona qədər söz və ifadələrin sadalanması üzərində qurulmuşdur. Rəsul Rza sənətkarlığı burada öz sözünü deyir, ayrı-ayrı sözlərdən kompazisiya düzəltməyi, bədii, əsrarəngiz lövhələr yaratmağı bacarır. Şair sanki sözlərlə duyğuların rəsmini çəkir, şəklin gözəlliyi sonda üzə çıxdığı kimi bu şeirin mənanısını da axırda duymaq olur:

Qəfəslərdə arşın malı, sabun.
Yerdə duz tayı, ağ nöyüt çəlləyi,
Çəlləyin dalında kitab bağlamaları.
Qəfəsdə tütünü qarışıq papiroslar;
tüstüsü – zəhər.
Kitablarda insan ümidi, insan arzusu.
Qəfəsdə yüzillik yubileyi ötmüş çaxmaq daşı (35,88).

Bu misralardan dərin mənalar gizlənir. Duz tayası, neft çəlləyi, qəfəs ilə kitab bağlamalarını müqayisə edən şair ilk üçündə heç bir mənəvi əhəmiyyətə malik olmayan əşyaların saxlandığını yazaraq kitab bağlamalarını üstün bilir. Kitablarda ümidin, arzuların gizləndiyini qeyd edən şair sabunun, neftin və digər əşyalar ilə maraqlananların sayının çoxluğunu, kitabların isə diqqətdən kənarda qaldığını poetik boyalarla qələmə alır. "Növbə gözləyir kitablar" cümləsi insanı düşünməyə vadar edir.

Nümunədən də aydın olur ki, Rəsul Rza dünya poeziyası təcrübələrindən bəhrələnərək uğurlu, cəsarətli eksperimentlər etmiş və yeniliyin əsasını qoymuşdur. Sovet rejiminin bürokratik qaydalarına rəğmən R.Rza poeziyamızda yeni qapılar açmışdır. Bu yolu sonradan Əli Kərim, Ələkbər Salahzadə, Bayat Odər, Vaqif Yusifzadə, Vaqif Səmədoğlu, Fikrət Qoca, Fikrət Sadıq, Zahid Sarıtorpaq (Məmmədov), Adil Mirseyid, Rasim Qaraca, Qəşəm Nəcəfzadə, Aqşin Yenisey, Murad Köhnəqala, Səlim Babbullaoğlu, Şəhriyar del Gerani, Orxan Bahadırsoy və başqaları getmiş, bununla yanaşı, onlar da yeni eksperimentlər etmişdir.

Modernist şairlərdən olan Əli Kərim yaradıcılığında fərdi estetikasını da yarada bilmişdi. Rəsul Rza novatorluğundan bəhrələnən şair özü də novator olmağı bacarmışdır. Ə.Kərim şeiriyyətini, sözünü hər zaman aktual saxlayan isə onun müasirliyi, eləcə də ənənələrə sadiqliyidir. Otuzdan çox yaşayan şair ömrünü Göyçayda, Bakıda, Moskvada, Tiflisdə... keçirir. Sonra bu məkanların sayını artırır - genişdən balacaya, azdan çoxa doğru... Gah qum üstündə, gah dənizdə və s. Birdən-birə şeirdə heç vaxt görmədiyimiz bir poetik ifadəyə - "iki söz arasında" olan bir "məsafə"yə rast gəlirik. Şair poetikliyi həkimin müalicəsində, baş tutmayan şeirin xarabalığında axtarır, bəzən isə...

Bəzən söz yarışında.
Bəzən ölüm sözünün polyar qışında (22, 15).

Nümunədə biz əvvəlcə ənənəvi məkanlara – Göyçay, Bakı, Tiflis və s. rast gəlirik, sonradan isə real məkanlar qeyri-real zəmin daşımağa başlayır: "İki söz arasında", "Həkimin çarəsində", "Baş tutmayan şeirlərinin divarlarının

xarabasında"... hadisələr vüsət alır. Hadisələrin reallıqdan başlayaraq orijinal ifadələrə keçid alması sənətkarın ustalğından xəbər verir.

Vaqif Səmədoğlu da modernizmə xas xüsusiyyətləri öz poeziyasında cəsarətlə və yerli-yerində istifadə etmişdir. V.Səmədoğlu poeziyasında mücərrəd zaman orijinallığı ilə seçilir. Şair üçün dünən, bu gün, sabah yoxdur, "bizsizlik", "mənsizlik", "sənsizlik" var. Məkan da müəyyən deyil, genişdir:

Gələcəklər, gedəcəklər, olacaqlar, öləcəklər,
Köç barxanası yığılarkən, aranda güllər solacaq,
Şimal, cənub qalacaq, sağ, sol olacaq,
Qrimlənəcəklər səhnə arxasında təlxəklər.
Mənsizlikdə,
Sənsizlikdə,
Bizsizlikdə... (45,6).

Şair xalq danışıq dilində işlənən ifadələri də poeziyaya gətirməkdən çəkinmir:

- Deyəsən öləcəyəm. Taqətim qalmadı...
- Atasına od vurdum!Vicdansızın...
- Möhtərəm cənablar! Xalqların...
- Sevirəm, sevirəm səni... – deyəcəklər (45,6).

Rəsul Rza yaradıcılığından təsirlənən Adil Mirseyid rənglə söz effektini öz poeziyasında birləşdirmişdir:

gecənin bir vaxtında telefonun zəngi çalar
gecənin bir vaxtında yuxudan oyanarsan
və bir gözün gördüyün şirin röyada qalar
röyadakı hilalın nuruna boyanarsan (68)

Gözün yeməkdə, yaxşı bir şeydə qalmasına öyrəşdiyimiz halda, şair gözünün röyada qaldığını yazır, yuxusundakı ayın nuruna boyanır. Bu misralarda biz sarı - Günəşin rəngini görürük. Gözümüzdə parlaq, işıqlı bir tablo canlanır. Birdən-birə şair dumanlı göyüzündə ağ bir ay çəkir. Abdal könlün, havalı dünyanın ona düşmən olmasından gileylənir. "Köhnə dua" ilə "qəmli nəğmə" üz-üzə dayanır.

"Bəyaz qadının portreti", "Akvarel" və başqa şeirlərində olduğu kimi bu misralarda da şairin rəssamlıq duyğularını hiss edə bilirik. Şeiri oxuyarkən insanın gözü qarşısında rəngli bir tablo canlanır. Sonrakı misralarda isə peyzaj təəssüratı bağışlayan etüd birdən-birə insan laqeyidliyindən doğan mənzərəyə çevrilir:

bəlkə çin rahibitək dağlara çəkilim mən
bəlkə bir ağac əkim bir dörd yol ayrıcında
bəlkə bu məmləkəti tərk edib gedim həmən
allahım bəllidi bu dünyada hər halım (68).

Assosiativliyin güclü olduğu bu misralarda samitlər-başdakı sözlər təkrarkanır. Onu başa düşməyənlərə doğru çevrilərək, bir az incik şəkildə "boş ver məni qardaşım, xəyalım dağınıqdı" deyərək istehza edir, bəzən isə ürək ağrısı ilə söyləyir

Şeir qəhrəmanı təbiətlə müqayisə edilir, mənəvi duyğuları ayla birləşir. Modernist şeir üçün aktual olan mənəvi qürbət təsvir edilir. Dumanlı fikirlərlə Himalayın çağırışına qaçmaq istəyən qəhrəman məmləkətdən qaçmaq, tərkidünya olmaq istəyir. Sanki şeirdəki ənənəvi obraz yeni çalarlarla, yeni hislərlə qarşımızda dayanır.

Adil Mirseyinin yaradıcılığını araşdıran Tehran Əlişanoğu əminliklə yazır ki, bu şairin adı V.Bayatlı, R.Rövşən, V.Səmədoğlu kimi şairlərlə eyni sırada dayanma iqtidarındadır: "Burada şairin mövqeyi də möhkəmdir də; söz sənətinin təsviri sənətə girib, üsul-fənd-vasitələrindən maksimum bəhrələnməsi, az qala hətta onu istismarı XX əsr qədər bəlkə heç bir əyyamlarda olmamışdır" (64)

Modernizm şeiri üçün qafiyələnmə, vəzn çox zaman sərbəst olsa da, heca vəznində yazan şairlərdə də var. Vaqif Bayatlı Odər o sənətkarlardandır ki, yeni ilə köhnəni vəhdətdə aparır, yaradıcılığının bəzi məqamlarında Füzuli poeziyası ilə "ayaqlaşır". V.Bayatlı heca vəznində modernizmin bir sıra xüsusiyyətlərini saxlaya bilir: söz oyunu qurur, durğu işarələri yox dərəcəsindədir:

Xan ceyranın qaçışında,
Ən şahana uçuşunda,
ya alnında, ya döşündə
bir ox yeri var, yeri var(10, 57-58).

Aşıq üslubunda yazılan bu şeirdə şair kosmosa uçmaq istəmədiyini qeyd edir. Hakimiyyətdə olmayıb şahlıq iddiasına düşənlərə açıq şəkildə "Şahlıq taxtında qalmısan, göyün yeddinci qatındasan" - deyən şair "hər ağ saçın altında" bir ahın yatdığını söyləyir. Küçələri, gecələri bölüşdürərək küçəni obraza verib, gecəni götürən şair "Sən bağlayan pəncərəyə bəri bax" birləşmələri işlədir.

Lirik qəhrəmanın ağrısı ənənəvi obrazınkına bənzəmir. Bu, klassik şeirlərdəki ilahi eşq səviyyəsində dayana bilməsə də, orijinal məhəbbətdir. Bədii təsvir və ifadə vasitələri ilə zəngin poeziya cəsarətli mübaliğələr yaradır. Məsələn, şair hər telin altında ah yeri olan qəhrəmanını cəsarətli təsvir edir. "Öpürəm telindən, ey üç kəlmə söz" adlı şeirindəki poetik qəhrəmanın sevgisi adidir, eyni zamanda təbii və səmimidir. Klassik şeirdəki "hamıdan çox sevən" aşiqdən fərqlənən bu qəhrəman içindəki duyğuların adını da bilmir, ünvanı da:

Yatar yuxusunda bir gənc dənizçi
Elə hey, elə hey kiməsə deyər:
– Unutma! Unutma! Unutma məni!
Bəlkə göyə dəyər, bəlkə ulduza,
bəlkə bir ölkəyə, bəlkə bir qıza,
bəlkə bir ağaca,
hardan biləsən?! (10, 55)

Müxtəlif obrazlarda – cildən-cildə düşərək qayıqçı, dənizçi, dəniz olan şair öz hisslərini, duyğularını dilə gətirir.

Vaqif Bayatlı yaradıcılığında ekstensial məsələlər çoxluq təşkil edir. Şairin poeziyasında "Allahın dərki" ilə "Məcnunluq-Dəlilik məqamı" arasında bir bağlantı var. Ümumiyyətlə, Allah-Tanrı obrazı modernist poeziyada yeni hadisə deyil. Modernist üslubdakı Tanrı ənənəvi poeziyadakı Allahdan xeyli fərqlənir. Tanrı motivini R. Rövşən yaradıcılığında müxtəlif formalarda görə bilirik.

Çıxdıq zülmətdən işığa,
Tanrı bizə ömür verdi.
Özgələrə - danışmağa,
Bizə - susmağa dil verdi.. (36, 251 ).

Sonrakı misralarda isə Tanrını "belimizdə qıfıl asan", "qalxanda vurub belimizdən basan", "əlimizdən hər şeyi alan", əvəzində isə "bizə səbr verən" varlıq kimi görürük. Şeirdə ifadə orijinallığı özünü göstərir. Misralar zəncir kimi bir-birinə bağlıdır, ayırmaq olmur, sanki biri çıxssa, bütün məna itər. Şairin təsvir etdiyi Tanrıda ikili xarakter əks olunur. Şeirdə atəşpərəstliyin konsepsiyası olan Xeyir-Şər Allahı vəhdət təşkil edir. "Dil verib qıfıl asan", "Yaradıb belimizdən basan" Tanrıya münasibət birmənalı deyil. Şairə görə, başqalarının ömrünün toya döndürən, başqalarını aya göndərən Tanrı onu suya xəlbirlə göndərir, bu halda isə heç adil davranmır. Modernist-eksperimental şeir üçün səciyyəvi olan gözlənilməz gediş bu şeir üçün də xarakterikdir. Şeirdə aqnostik fəlsəfə də hiss olunur. Sanki şair Tanrının var olub-olmadığına şübhə ilə yanaşır. Şeirdə heca vəzni ilə sərbəst vəzn vəhdət təşkil edir.

Müasir poeziya, xüsusilə modernist cərəyan üçün assosiativlik və obrazlılığın əksi də səciyyəvidir. Modernist poeziyanın bu xüsusiyyətləri Ələkbər Salahzadə yaradıcılığında vüsət almışdır. Ə.Salahzadə poeziyasına məxsus olan bu xüsusiyyətlər gənc şairlərin yaradıcılığına da təsirsiz ötüşməmişdir.

# II F Ə S İ L. MODERNİST ŞEİRDƏ ASSOSİATİVLİK VƏ OBRAZLILIQ

## 2.1. Ələkbər Salahzadə poeziyasında modernizm elementləri

Azərbaycan poeziyası XX əsrin 60-cı illərində yeniləşməyə, dəyişməyə başlamışdır. Bu proses zamanı şairlər yeniliklər axtarışına çıxır, orijinal bədii təsvir və ifadələrdən istifadə edir, istiqamət və üslublar formalaşdırırdılar. XX əsr 60-80-ci illərin poeziyasında özünəməxsus, orijinal yer tutan şairlər sırasında Ələkbər Salahzadənin də adını çəkmək olar. Ələkbər Salahzadə Azərbaycan modernist poeziyasının qabaqcıl nümayəndələrindəndir.

İstedadlı şair Ələkbər Baba oğlu (Məmmədsalahlı) 1941-ci ilin martın 15-də Qubada anadan olmuşdur. Bakı Dövlət Universitetinin Filologiya fakültəsini bitirən ədibin yazıları erkən yaşlardan dövrü mətbuatda çap olunmuşdur. Bir müddət "Azərbaycan" jurnalında ədəbi işçi kimi çalışan Ə.Salahzadə "Tərcümə saatı" radio jurnalında ştatdankənar redaktor, "Gənclik" nəşriyyatında tərcüməçi, poeziya üzrə redaktor, "Ulduz" jurnalında poeziya şöbəsinin müdiri və redaktoru olmuşdur. 1968-ci ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü olan istedadlı şair Ələkbər Salahzadə 100-dən çox essenin, məqalənin, radio-pyeslərin, 20-dən artıq uşaq nağılının müəllifidir. Onun "Yayın qış gecələri", "Nağaraçı naxırçı", "Kölgədən qorxan" pyesləri səhnələşdirilmişdir. Şairin "Beş yarpaq" (1968), "Od heykəli" (1970), "Gözlər baxır dünyaya" (1979), "Xatirə çiçəyi" (1982), "Yerimiz bir, göyümüz bir" (1986), "Od odası" (1989), "Xocalı xəcilləri" (2006), "Vaxt vadisi" (2007), "Mikayıl Müşfiqin monoloqu" (2008) və s. adlı şeirlər və poemalar topluları çap olunmuşdur. Rəsul Rza adına mükafatın, Əməkdar incəsənət xadimi olan şair 2013-cü ildə vəfat etmişdir.

1950-60-cı illərdə Rəsul Rza şeiriyyəti ilə poeziyamızın formalaşan eksperimentçi qanadının davamçısı olan Ələkbər Salahzadə çərçivələri sındıraraq qəlibləşmiş şeirə yeni effektlər, başqa mündəricə, ənənəvi poeziya üçün yad olan

duyğular gətirmişdir. O, şeirin qəhrəmanını dəyişməklə yeni obrazlar yaratmağı bacarmışdır. Məhəbbət mövzusundan, ictimai-siyasi motivlərdən uzaqlaşaraq səmimi sfera yaradan şair qəhrəmanını məişətdən - yeniyetmə qızların sevgilərində, gündəliklərində, dəliqanlı oğlanların çəhər macəralarında axtarmışdır. İnsanların sirr dolu dünyasını poeziyasının predmetinə çevirən şair oxucularda maraq yaratmışdır. O, poeziyasında milli-bəşəri obrazı folklor müstəvisində mifik boyalarla əks etdirməyi bacarmışdır:

Qapısını açıb
girdim bir əfsanəyə...
Bölündü
bir saniyəm;
yarısı şəhərimdə,
yarısı əfsanədə.
Diksindim
toran bir əsrdə tənha qalınca,
sandım
dəbilqəli-qalxanlı bir dəliqanlı
əl atacaq qılınca...( 38 , 72)

– misralarında şair xalq əfsanəsinə sığınır, dəbilqəli-qalxanlı qəhrəmanını qədimdən şeirinə gətirir, oxucusunu keçmişə aparır, birdən-birə isə o əfsanədən uzaqlaşır:

Yara-yara keçmişi,
əfsanədən çıxır başım;
Aluminium repreduktor
gümüşü-gümüşü
əsrlərdən kükrəyən musiqiylə fışqırır!
Uzaq bir əsrin başından
bir şəhər açılır qarşımda!
-Adamlar, hey.
bir şəhər tapmışam, bir şəhər! (38 , 76)

"Beş yarpaq", "Od heykəl" şeirlər kitablarında bir bölmənin "Əfsanələr, nağıllar" adlandırılması da səbəbsiz deyildir. "Nənəm haqqında nağıllar", "Qız qalası", "Sünbül əfsanəsi", "Günəbaxan" və digər şeirlər silsiləsində xalq yaradıcılığı ilə müasirlik vəhdətdədir. Bu cür şeirlərin qəhrəmanları da sanki nağıllardan, əfsanələrdən gəlmişdir, lakin yeni, qarmaqarışıq dünyanın sakinlərinə çevrilmişdir. Bu məsələyə də fikir bildirən ədəbiyyatşünas İ.Musayeva qeyd edir ki, Ələkbər Salahzadə poeziyasını poetik mənzərələr, folklor nümunəlari – əfsanə, nağıl, rəvayət, atalar sözləri, ifadəli və yeni obrazlar silsiləsi təşkil edir. Şeir təsvirləri dəqiqi və real məntiqə əsaslanır. Obrazlar isə bəzən insan cildində, bəzən isə insan obrazların qeyri-insani təsvirləri şəklində verilir. Hər bir halda şairin poeziyasında emossionallıq, temperament, hərarət kifayət qədər olur. Şair "təbiətdəki və məişətdəki obrazlar vasitəsilə müəllif özünəməxsus, orijinal yanaşma üsulu ilə bu əbədi və həmişəyaşar mövzuya müraciət edib" (30, 211). Bununla belə, tədqiqatçı, Ələkbər Salahzadə şeirlərindəki nağıl, əfsanə sözlərini folklora yaxınlıq, xalq ədəbiyyatı ilə əlaqə kimi qəbul etmir: "Onu da qeyd edək ki, “nağıl”, “əfsanə” sözlərinin başlıqlarda çox işlənməsi xalq ədəbiyyatına yaxınlıq məqsədilə deyil, şeirlərin məzmunu, ideyası bu sözləri tələb edir"(30, 211). Tədqiqatçının bu fikri ilə qismən razılaşırıq. Doğrudur, şeirin məzmun və ideyası da bunu tələb etmə iqtidarındadır, lakin düşünürük ki, şairin xalq ədəbiyyatına müraciəti də səbəbsiz deyildir. Fikrimizcə, şair qəsdən xalq ədəbiyyatının qəhrəmanlarını müasir dövrə gətirir, onları müasir həyatla bağlayır. Bu məqamda şairin nağıllar müəllifi olmasını da unutmamalıyıq. Bu bağlılıq və sevgi modernizmdə də xalq ədəbiyyatından uzaqlaşmağa imkan vermir.

Ələkbər Salahzadənin şeirlərində nağıllara xas dönmələr, çevrilmələr, xüsusiyyətdən-xüsusiyyətə, obrazdan-obraza keçmələr, cilddən-cildə düşmələr müşahidə olunur. Obrazlar, şairin təsvri etdiyi mənzələr tez-tez dəyişir:

Uzaqdan daha aydın,
uzaqdan daha bütöv!
Yol
    bir kəndə əl uzadır.

Çinar
bir kənddə bitib!
Baş-başa verib evlər (41,20).

Onun şeirlərinin lirik qəhrəmanının iç dünyası zamanın sürətli tempi ilə birləşərək yeni, yığcam janrları - Atüstüləri meydana çıxarmışdır:

Bu otaq nə təmiz,
bu otaq nə gen!
Tərkibini dəyişdi
bu otaqda oksigen (38 , 102).

Şair bu cür şeirlərdə günün prozaizmindən maraqlı, bir qədər də təəccüb doğuran hikmətlər çıxarmışdır. Bununla belə bu şeirlərdə müasir dövrün mənzərələri canlanır, sözlərlə mistik "oyunlar" qurulur:

Bir at heykəlinin yeri
Bakıda,
xəyaldan şığıyan bir at heykəli!
Ya Dağüstü parkda,
ya ayrı bağda,
qımışsan maşınlar hirsli-hikkəli (42, 7).

Ələkbər Salahzadə poeziyasını orijinal edən və onu sevdirən cəhətlərdən biri modernlə milli ruhun, düşüncə ilə təbiətin vəhdətidir. Bu şeirlərdə rənglər bir-birilərinə qarışmır, həmahənglilik, çalarlılıq yaradır.

Yel dəyirmanına
dolaşdı külək,
dolaşdı, yıxıldı, dikəldi külək,
yenidən yıxıldı,
qalxıb, xoruzlanıb dalaşdı külək,
vuruşdu...
Don Kixot babası kimi (41, 33).

"Yel dəyirmanı" adlı şeirdən nümunə gətirdiyimiz misralarda təbiət təsviri ilə qarşı-qarşıyayıq. Küləyi təsvir edən, əlamətlərini sadalayan şair onu qəfildən dünya ədəbiyyatının simvola çevrilən obrazına bənzədir. Küləyi cəngavərlik romanlarının parodiyasına çevrilən "Don Kixot"un məğlubiyyətə uğramış baş qəhrəmanına, eləcə də onun yabısına bənzədir. Şeirdə birdən-birə Yel dəyirmanının kinayəli gülüşünü eşidirik:

Ay aman qoymayın!
Bir dəli öldürür, yırtır özünü
elə bilir döyür məni! (41, 33).

Bu misralarda oxucu obrazın monoloqu ilə baş-başa qalır. Bu cür monoloqlara Ələkbər Salahzadənin bir çox şeirlərində rast gəlirik. Daxili monoloq metodundan müxtəlif çalarlarda istifadə edən şair oxucuları mənəvi dünyası ilə tanış edir. "Ələkbər Salahzadə daxili monoloq xiridarıydı, o kəslərçün yazırdı ki, o kəslərə yazırdı ki, mikrafon alüdəçisi deyildilər, səsucaldıcı küyü yox, özüylə qalıb qəlbiylə söhbət etməyi üstün tuturlar" (5,4).

Mənim yaşım – 22.
Mənim yaşım
danışmağa dəyirmi ki
Sanıram ki,
22 qardaşım var (38, 13).

Şair yaşadığı hər bir ili bir insan hesab edir. Lap kiçiyini yuxulara aşiq olan biri hesab edir. Sonra isə yavaş-yavaş qayğılara bürünün bir insana çevrilir. 6 yaşına kimi dəcəlliyini xatırladan şair hər birini bir dəcəl uşağa bənzədir.

Ələkbər Salahzadə şeirlərində lirik hiss gözəl təsvirlərlə verilir. Şair səmərəli axtarışlar nəticəsində maraqlı tapıntılar edir. "Çörək ətirli tüstü", "Payız çağı", "Beş yarpaq" adlı şeirlərdə gözəl hislərin poetik tərənnümünü görürük.

Qıvrılıb baca-baca
Tüstü göyə dırmanır.
Ocaqda çörək bişir
Ocaqda soyuq yanır (38, 44).

Nümunə göstərdiyimiz misralarda maraqlı, heç bir ənənəvi şeirdə rast gəlmədiyimiz ifadələr olan "tüstünün göyə dırmanması", "ocaqda soyuğun yanması" maraq doğuran ifadələrdir.

Ələkbər Salahzadə şeirlərində qeyri-adi obrazlar yaratmağı bacarır. Onun poeziyasında gözəl, fərqli obrazlara rast gəlirik. Məhz buna görə də 1960-1970-ci illər ədəbi tənqidində Ələkbər Salahzadənin poeziyasından söhbət açılanda “obrazlar şeiri” ifadəsi tez-tez işlənir. "Ən kiçik, ən önəmsiz görünən bir əşya, predmet belə onun şeirlərində canlana, var ola, yaşaya və ölə bilər. Ən əsası isə o predmetlər fərqli və maraqlı mənzərənin yaradılmasının vasitəçisinə, detalına, obrazına çevrilir"(62).

"Bir kənd nağılı" adlı şeirdən nümunə göstərdiyimiz bir hissədə təsvirlər sürətlə dəyişir, yol çinarla, çinar kəndlə əvəzlənir, şeirin dinamikliyi artır. "Toplayanlar, çıxanlar", "Rəngsaz" və başqa şeirlərində modernizmə məxsus olan dinamiklik, söz oyunu özünü göstərir.

Bölünən də bölür,
çıxılan da çıxır indi.
Azalan da üstə gəlir,
çoxalan da çıxır indi- (42, 128)

misralarında riyazi əməllərə fəlsəfə donu geydirilir, ictimai-siyasi motivlər söz labirintinin altında gizlənir.

həmişə fırçasız, rəngsiz olmusan,
xiffətindən
saralıb-solmusan
Yox yerdən var olmusan,
indi ta rənksaz olmusan
Birdən-birə rəngə həssas olmusan,
az qala rənkkar olmusan! (42, 128)

Bu misralarda isə şair birdən-birə ustalığı öyrənən bir rəssamdan söz açır, bəzən rəğbətlə, bəzən kinayə ilə yanaşdığı obraza "hətta fırça ilə şillə çəkmə"yə də icazə verir. Şair elə canlı təsvirlər verir ki, mənzərəni görmək olur. "Onun şeirləri

“qulaq” şeirləri deyil. Gözlər üçün yazılıb. Sözün bütün anlamında. Yəni məsələ təkcə mətnin hecanın şirin havasına, axınına bürünməməsində deyil. Əsas məsələ bu şeirlərdə göz üçün, görmək üçün, məhz görə-görə duymaq, hiss etmək və yaşamaq üçün yaradılmış mənzərələrin olmasıdır" (62).

Ələkbər Salahzadə şeirlərinin obrazları zəngindir. Tanınmış şəxslərdən tutmuş sadə əmək adamlarına qədər hər kəs, cansız əşyadan tutmuş təbiətə qədər hər bir şey onun şeirin qəhrəmanlarıdır. Tanınmış şəxsləri şeirinin qəhrəmanına çevirən şair şeirlərə obrazın adını versə də, içində yalnız əlamətlər öz əksini tapır:

Şimşək kimi
sayrılır
Koroğlunun qılıncı!
Bir ürəyin qanından,
bir əlin torpağından
qalxır
titrək bir çubuq–
dirijor çubuğu (38,68)

Bu misralarda görkəmli dirijor Niyazi canlandırılmışdır. Şeirdə bir tərəfdən dirijorun portreti təsvir olunduğu halda, bir tərəfdən də xarakteri, mənəzə canlanır.

Səttar Bəhlulzadə kimi dünyaşöhrətli böyük rəssam Ələkbər Salahzadənin obrazına çevrilmişdir.

Bir az
Məcnuna bənzər
gündoğandan günbatana...
Əllərinə yığışar
quşlar, çiçəklər;
əllərində, ürəyində, gözlərində uyuyar (38, 32).

Tədqiqatçı Vaqif Yusifli şeiri təhlil edərək haqlı olaraq qeyd edir: "Şeirdə Səttar Bəhlulzadənin təbiət mənzərələrindən alınan təəssüratlar, rəssamın yaratdığı rənglər dünyasının özünəməxsusluğu şeirin özünün poetik tablo kimi qavranılmasına imkan verir (51, 295). Həqiqətən də, şeirdə rəngləri "görə bilərik".

Buradakı sözlər sanki boyalarla rənglənib. İfadə və rəng həmahənglik daşıyır. Bu şeirdə şair sənətkar taleyini bir obraza sığışdırmışdır. Şeirdə rəssamın adı çəkilmir. Rəssamı əncir ağacına bənzədən şair daha çox əllərini poetik boyalarla təsvir edilir:

Əllərinin budaqları yarpaqlayar,
çiçək açar.
Əllərindən sellər axar (38, 33).

Şairin poeziyasında peyzaja üstünlük verilir. Bu cür şeirlərdə assosiativ şeirin imkanları özünü göstərir. "Payız çağı", "Beş yarpaq", "Uzun çay", "Şəhərdə durna qatarı", "Çaylar, qollar", "Bir kəndin nağılı" və s. kimi şeirlərdə yer alan təbiət ünsürləri insan və onun həyatı ilə paralelləşir.

Məsələn, "Çaylar, qollar" şeirində (42,5) şair çay ilə qol arasında assosiativlik yaratmış, məharətlə bu poetiklikdən istifadə etmişdir:

"Böyük Qafqaz, Kiçik Qafqaz dağlarından
qollar gəlir,
çaylar gəlir:
"Ay ana, qurbanın olar,
qurbanın olaq, ay ana!" (42,5)

"Səttar Bəhlulzadə" şeirində isə "şair-əl-ağac" arasında ifadə bağlılığı özünü göstərir.

Ayaq üstə bir əncir ağacı – təbiətlə əl-ələ.
Gənclər dolaşar
gündoğandan günbatana.
Rəssamların gözlərinə yığılar,
ürəyində əriyər.
Əllərindən, firçasından asılar,
rəng-rəng, çilik-çilik
köçər kətana (38,32).

Şair bu misralarda orijinal, təkrarolunmaz bənzətmələr yaradır. Ağacla əl bir-biri ilə necə yaxındırsa, rəssam və kətan da eyni münasibətdədir. Burada rəssamın böyük qüdrətindən danışılmır. Sadəcə onun əli təsvir edilir ki, bu əllərə quşlar,

böcəklər qonur. Burada olduğu kimi digər əksər şeirlərində də insana, insanlığa münasibət meyarında prinsipləri güclüdür. Sosialist realizmi çərçivəsində Ə. Salahzadə o dövrün ağrılarını, acılarını görə-görə gəlmiş, qismətinə düşmüş şairlik borcunu şərəflə yerinə yetirmişdir.

Ə.Salahzadə repressiya qurbanı Mikayıl Müşfiqə şeirlər həsr etmiş və "M.Müşfiqin monoloqu" adı ilə kitab nəşr etdirmişdir. Həmin kitabda şairin müxtəlif illərdə Mikayıl Müşfiqə həst etdiyi şeirləri, esseləri, eləcə də "Dan üzünə fışqıran" adlı poeması toplanmışdır.

Müşfiq yaddaşdır,
Şeirimizin yaddaşıdır,
Şairə-sənətə məhəbbət yaddaşıdır.
Və ümumiyyətlə yaddaşdır.
Müşfiq unudulmazdır.
Müşfiqi oxuyanda adamın ürəyindən bir səda qopur:
O hələ nələr yarada bilərdi
Onun yaza bilmədiklərini təsəvvür tamamlayır (32,248).

"Şeirin yaşıdı" adlı bu şeirdə Ə.Salahzadə öz duyğularını, təəssüfünü dilə gətirir.

Dənizçilər, balıqçılar bir çox əsərlərin qəhrəmanı olmuşdur. Ələkbər Salahzadə poeziyasında isə bu qəhrəmanlar yeni adla – "Avarqollular" ilə adlandırılmışdır. Evdən arzularının, qayğılarının dalınca çıxan balıqtutanlar qayıdarkən dalğaların qəzəbinə tuş gəlir. Onlar bir-birilərindən bərk-bərk yapışaraq dənizin dalğalarına sinə gərirlər:

Arxayındı,
onları,
dalğa qolları üstə
gətirəndə sahilə,
Sərxoş bir təpəgözün
ağzından çıxdı onlar

Bir dənizə boylanıb,
Bir tora baxdı onlar
Qayıqların içində
Tufan susub qalmmışdı
ölüm donub qalmışdı
balıqların içində,
balıqların içində...(38,36).

Süjetli şeir müsbət sonluqla bitir. Həyatın təbii hadisəsindən, sınağından avarqollular üzüaçıq çıxır. "Dalğalar qayıqları atıb-tutur cop kimi, onlar isə umidlə "bir-birinin əlindən tutub" bu təhlükədən qurtulmanı gözləyirlər. Bununla şair "Evdəki uşaqların əllərindən tutdular", qorxu artdıqca "evi də unutdular" poetik qənaətinə gəlir. Əgər dövrün poetik dili və ifadə vasitələri ilə müqayisə etsək, bu ifadə vasitələrinin hər birinin yeni olduğunu görmək olar" (20, 229).

Şair mifik qəhrəmanları da şeirlərinə gətirməkdən çəkinmir. O, qəhrəmanı tarixin alt qatlarından müasir həyata ustalıqla çəkib gətirir, müasir dövrdə olan qlobal problemlərə də işıq salır:

Bir Bakı axşamının
işıq çətrində
gəzir əsatirli Promotey.
Od yurduna baxa-baxa
üzərində qovrulur
neçə-neçə ölkənin
işıq dərdi (38, 42).

Yunan mifologiyasına görə, Promotey insanların dostu olaraq, onlara Afinadan müdrikliyi, Hefest emalatxanasından isə odu oğurlayıb verir. Həmin mifoloji görüşlərə əsaslanan şair digər ölkələrdəki işıq problemi ilə yanaşı qənaət ilə işlədilməyən Bakı işıqlarından da söz açır.

Ə.Salahzadə "İşıq nağılı", "Uçan quşlar, yarpaqlar", "Bir kənd nağılı", "Nənəm haqqında nağıllar", "Ağac nağılı", "Ulduz əfsanəsi", "Qar və çiçək", "Sünbül

əfsanəsi" və s. şeirlərində nağıllaşan obrazlara müraciət edir. Şairin poetik dünyasındakı obrazlar qarışıq zamanın insanlarıdır: həyəcanlı, təlaşlı, təlatümlü.

Ələkbər Salahzadə şeirlərində ənənəvi təsvir və ifadə vasitələrinə yad olan poetizm mövcuddur. Şair yeni ifadələr yaratmaqdan çəkinmir, uğurlu təsvirlər yarada bilir. Ənənəvi ifadəetmədən kənar yaradılan bu ifadələrlə də ənələrə sadiq oxucuların rəğbətini qazana bilir, onların könlünü oxşamağı bacarır.

Ələkbər Salahzadə "Beş yarpaq" şeirində qitələrdən bəhs edir. Şair ürək ağrısıyla qeyd edir və narahat olur ki, dünya məhvə sürüklənir. Şeirdə bənzətmələrdən də istifadə edilərək dünya qarışqa kiçiklikdə təsvir edilir.

Ustad sənətkarın dilində frazeologiyanın da böyük əhəmiyyəti vardır. Müxtəlif frazemlərlə qurulan ifadə və təsvir vasitələri Ə.Salahzadə şeirinin orijinallığını artırır:

İnsan ümidinin işıqlarıyla
durub ayaq üstdə yenə Şamaxı.
– Ümiddən uzanmış şaxələriylə
yandı gözlərimdə min şam ağacı! (41, 27)

Nümunədəki misralarda bədii nitq frazeoloji ifadələrin və düşüncənin kontekstində vəhdət təşkil edir. Ə.Salahzadənin bəzi şeirlərinin adlarında da frazeologizm var: "Qəm yemə", "Gün görməyən gün", "Kim nə çəkir", "Könlü balıq istəyən", "Gün görməyən gün" kimi bir çox şeirlərində ideomatik təfəkkür öz sözünü deyir.

Poeziyamızda dünya, kainat, kosmos ilə bağlı şeirlər mövcuddur. Ələkbər Salahzadə poeziyasındakı dünya və kainat isə ənənəvi şeirlərdəki dünyanın təsviri, tərənnümü, modernizmdəki vəfasızlıqdan, inkardan çox fərqlənir. Şair "Hərəkət" şeirində daima hərəkətdə olan dünyanı fərqli boyalarla təsvir edir. Doğrudur, bir çox şeirlərdə dünya və kainat haqqında təsvirlərə rast gəlirik. Bu şeirlərin əksəriyyətində dünyanın zahiri görkəmi vəsf edilmişdir. Lakin bu şeirlərin çox az qismində dünyanın doğru təsviri verilmişdir. Ə.Salahzadənin isə bu şeirində dünya insanın gen yaddaşına əsaslanaraq sözə çevrilmiş, canlı təsvirlərlə verilmişdir. Bu şeirdəki dünya hərəkətə gəlib gücü, qüvvəsi ilə yaranmışdır.

Şair 1962-ci ildə yazdığı "Afrika, Afrika" şeirində dünya fəlakətlərinə toxunaraq qitənin tarixinə nəzər salır. Burada baş verən faciələrin səbəblərini axtararaq köklərə gedən şair Şərq-Qərb problemini işıqlandırır. O, ürək ağrısı ilə qeyd edir ki, Şərqin dəyərli eksponatları Qərbin muzeylərində saxlanılır.

Tarixin ən ədalətsiz davranışları ilə üz-üzə qalan,
muncuqla...
aldadılıb fil dişi, qızılı daşınan ölkə(41, 25).

Şair tarixi həqiqətlərə əsaslanaraq yazır ki, bir vaxtlar muncuq ilə baş aldadıb qızılı daşıyanlar onun yerinə silah-sursat alaraq onu pis məqsədlərə istofadə edir. Afrika sərvətləri ilə silahlananlar afrikalıları məhv edir.

Ə.Salahzadə bu şeirində maraqlı paralellər yaradır: Qaradərilinin ağ dişləri ilə rəhmsiz ağların gülüşünü müqayisə edib birinciyə üstünlük verir.

Söz açdığımız bu poeziyanı maraqlı edən cəhətlərdən də biri sufizimlə çağdaş poeziyanı vəhdəttə verməsidir. Klassiklərimiz kimi Ə.Salahzadənin də şeirləri kodludur:

Gedin Bisütün çapın,
canlı qayaları çapmağa nə var!
əsil daşları axtarın-çapın,
daş ürək, daş qaya tapmağa nə var!
Daş-daş haray, qaya fəryad
diş-diş didilən bu karxanada
Bağıran, boğulan, ölən Fərhaddır
qulaqlar quyumu bu karxanada (41, 25).

Bu misralardan tarixdə əfsanələşən Fərhadın harayını "eşidirik". Şair bu misralarda "canlı qaya" ifadəsi ilə insanı və onun qəlbini simvollaşdırır.Yəni dağı, daşı çapmaq çətin, insanı məhv etmək, qəlbini qırmaq isə asandır.

Modernist şairin yaradıcılığında estetizm özünü göstərir. Şair sözlərlə incə şəkildə, dəqiq işləməyi, sözlərə uyğun sözlər seçməyi, onlarla "oynamağı" ustalıqla bacarır.

Torpağa susayan çox,

deyəsən Yerdən keçməli olacayıq.
Göyü gözaltı eyləyib
Marsa köçməli olacayıq (38, 98)

Şair "imtina etmək" sözünün qarşılığı kimi "keçmək", "seçmək" sözünü isə "gözaltı eyləmək" ifadələri ilə işlədir. "Yerdən keçmək", "göyü gözaltı eyləmək" ifadələri oxucular üçün yeni olsa da, söz oyunu olduğu üçün sevdirir.

Şair məhəlləsindən "bölük-bölük" insanların – soyuq qışdan sonra doğulanların bəxti gətirmədiyini yazır. Təəssüflə, ürək yanğısıyla yazır ki, anaları onlara "can" da demir. "Bölük-bölük keçmə"ni içəridən parçalanma ilə, qışı isə müharibədən sonrakı vəziyyət ilə səciyyələndirir:

bir ölkənin qayğısına bürünərək böyüyənlər...
biz baxdıqca boy-buxuna,
könlümüzdə arzu qalxır çiçək-çiçək (38, 9).

Bu misralarda da şair sözlərlə zərgər dəqiqiliyi ilə işləyir, yeni sənət nümunəsi yaradır.

Ə.Salahzadə demək olar ki, bütün ifadə və təsvir vasitələrindən istifadə etmişdir. Onun bütün şeirlərində inversiya hadisəsinə, eləcə də bənzətmələrə rast gəlirik.

"Çay əfsanəsi" şeirində çay ağaca bənzədilir. "Bu ağacdan zoğ atıb bütün yaşıl ağaclar" misrasında ilk "ağac" sözü metafora kimi çıxış etmişdir.

Çöl yanıb-qovrulub
ilan-ilan qıvrılanda
          sərilib torpağa;
indiki ağaclar, indiki otlar
          qalxıb ayağa! (38, 88)

Şeirdə mübaliğə var. Şair "ilan-ilan qıvrılanda" ifadəsi ilə sanki təşbehin yeni növünü yaratmağa çalışmışdır. Bildiyimiz kimi, təşbehin iki növü mövcuddur: "Mükəmməl" və "müfəssəl". Bu nümunəni heç bir növünə aid etmək olmur. Lakin bu ifadəni "ilan kimi qıvrılanda" anlamında başa düşdüyümüz üçün, təşbeh hesab edə bilərik. Başqa bir nümunəyə nəzər salaq:

Üzləri Vyetnam səması,
gözlərində vətən qəmi, ( 38, 66)
– bu nümunədə isə müfəssəl təşbeh var.

Masaüstü çıraq kimi
əyilmişəm
dünyanın üzərinə (38, 40)
– bu nümunədə isə mükəmməl təşbeh var.

Şeiriyyətində "Çörək ətirli tüstü", "Əsatirli Promotey", "ana yuxu" kimi maraqlı epitetlərə də rast gəlinir.

Onun poeziyasında maraqlı metaforalar da özünü göstərir:

Tufan susub yatmışdı,
Ölüm donub qalmışdı (38, 36)

Ə.Salahzadə poeziyasında alliterasiya və assonans səslər üstünlük təşkil edir:

Adamları qayğılı,
Adamları narahat.
Bir düymə çalımına–
Atomları farağat! – assonans
Bir çağlayır, bir coşur okeanlar, dənizlər
Bir-birinə qovuşur okeanlar, dənizlər. –alliterasiya

Yaradıcılığında ağrı-rahatlıq, sevinc-kədər, inam-aldanış paralellik təşkil edir. O, demək olar ki, heç bir siyasi səhnələrdə, proseslərdə iştirak etməmiş, ictimai həyatından uzaq qalmış, mənəvi əxlaq örnəkləri yaratmağı qarşısına məqsəd qoymamışdır. Onun şeirlərində nə İslam və din əxlaqı, nə də xoşbəxt Azərbaycan mövcuddur. Ələkbər Salahzadə poeziyası bəşəridir. Bu səbəbdən də, Ə.Salahzadə poeziyası dünən də, bu gün də aktualdır, sabah da öz yeniliyini qoruyacaqdır. Sovetin təyin etdiyi proqramlaşdırılmış ədəbiyyatında iştirak etməyən şair kimi tarixi düşmüşdür. Buna görə də müəyyən dövrdə ədəbiyyatda yaranan böhran Ə.Salahzadə yaradıcılığından yan ötmüşdür.

Şairin bir şeiri kifayət edir ki, yaradıcılığındakı poetikliyi duyaq, şeirləri arasındakı məna yaxınlığını görək. Bu şeirlər arasında bir bağ, əlaqə var. Texnologiyanın inkişaf etdiyi müasir dönəmdə belə Salahzadə poeziyası yeni şeiriyyətin tələblərinə də uyğun gəlir.

...bir iynəyəm,
götürün uzun-uzun yollarla saplayın,
hey saplayın, dünən-sabah arası
hesablayın məni, hesablayın!

"Ələkbər Salahzadənin şeirlərindəki lirik hiss, lirik görüş, səmərəli axtarış onun poetik istedadını göstərir" (34, 168). Şairin tapdığı hər bir ifadə məzmun cəhətdən də orijinaldır. Onun şeirləri poetik siqləti ilə diqqəti cəlb edir. Təbiət ilə insanın vəhdətini təşkil edən poeziyada zəhmət, əmək də tamlığı təmin edən vasitə kimi bədiiləşir.

Ot çalınır,
otçalanlar bir orkestr;
bir havanı tutub gedir.
Yüz çiçəyin harayını
bir vıyıltı udub gedir («Otçalanlar») (39, 4).

Burada təsvir olunan zəhmət ehtirasdan yaranmışdır. Yaratma, dünyaya qovuşma ehtirası şeirin əsasını təşkil edir. Ələkbər Salahzadə bütün şeirlərində olduğu kimi burada da həyatın, təbiətin, əşya və hadisələrin, eləcə də zəhmətin poeziyasını yaşayır. Şeirlərində əks olunan harmanoniya sözdəki bütün sözləri və misraları əhatə edir. Hər bir söz və ifadə vəhdət təşkil edir. Zəncir kimi bir-birinə bağlı olan sözlər həm də ritmiklik baxımından da bir-biri ilə uyöunluq təşkil edir. Sanki bir sözü çıxarsaq, bütün məna itəcək.

Onda obyektə yanaşma həssaslığı yüksəkdir. Bu da şeirlərini daha da mükəmməl edir. Şair gördüyümüz, əsrlərlə qəbul etdiyimiz nəsnələrə, hadisələrə başqa rakursdan baxır. Ayın görünməyən tərəfi kimi...Şair oxucularının baxışını, dünyagörüşünü dəyişir. Hər zaman eyni gözlə nəzər saldığımız tərəfə bir də Ə.Salahzadənin baxışı ilə baxırıq.

Digər məziyyətlərindən biri isə odur ki, bütün şeirlərinin sonu konkret, bitkin və məntiqidir. Şair çatdırmaq istədiyi ideyanı, göstərmək istədiyi nəticəni çox zaman gizləmir. Oxucu hər şeirindən nəticə çıxarmağı bacarır. Bu nəticələr bəzən subyektiv ola bilir.Yəni hər oxucu öz dünyagörüşünə, yaşam tərzinə görə nəticə çıxarır. Bu da şairin ustalığından irəli gəlir. Ə.Salahzadə poeziyasını oxucu kütləsinə sevdirən də məhz bu cəhətdir.

Şair yazdığı şeirlərin vəznini də oxuculara çatdıracağı ideyanın tələbi ilə müəyyənləşdirir. Ələkbər Salahzadənin peoziyasının çox hissəsini sərbəst vəzn təşkil edir, bu da modern üslubun tələbindən irəli gəlir. Ələkbər Salahzadə poeziyasından danışarkən mütləq azad şeir şəklinə də nəzər salmalıyıq. Sərbəst şeirimizin inkişafında onun da əməyi böyükdür. Şairin poeziyasını Azərbaycan dilinin ən geniş vüsətli səs poetikası hesab edə bilərik. Ə.Salahzadə üçün dil başlıca vasitədir, "şeirin vətəni"dir. O, Azərbaycan dili ilə bağlı poetik axtarışlarında fövqəladə istedad nümayiş etdirir. Ə.Salahzadənin verlibr (özgür şeir) yaradıcılığında dəyərli cəhət bəndlərin kompozisiyasıdır.

Ələkbər Salahzadənin alleterasiyalı və kompozisiyalı azad şeirləri örnək olmuşdur. Məsələn, "Otçalanlar" şeirini oxuyarkən gözümüzdə mənzərə canlanır. Şair ot çalınmaqla saz, ud çalınmağı paralelləşdirir. Oğlan musiqi sədaları altında ot biçir. Qəfildən şair odun, otun qoxusunu hiss etdirməyə çalışır: dəryaz qızanda od da, ot da qızır. Sonra isə otun quş kimi nəğmə "oxumasını" təsvir edir.

Günəş göydən
dəryazları oxa tutur.
Yanıq otlar sırasından itib gedən kolu-kosu
yuxu tutur (39, 4-5).

"Ələkbər Salahzadə poeziyası, ümumiyyətlə, Azərbaycan ədəbiyyatında “avtor şeiri”nin, tam müəlliflilik statusluğunun ən yadda qalan ifadəsidir. Ə.Salahzadənin şeirlərində onun hən forma, həm də bədii məzmunun təkrarasızlığını görürük (8, 272). Onun şeir dili doğma, amma yenidir. Görmədiyimiz, eşitmədiyimiz ifadələri o yarada bilmişdir.

Ələkbər Salahzadə ədəbiyyatımızın elə nümayəndələrindəndir ki, modern ilə ənənə, milli ruhla müasir düşüncə bir-birinə sirayət edir. Bununla belə, şair rəngləri bir-birinə qarışdırmır, hər birini öz çalarında əks etdirir. Ehtiva olunan xüsusiyyət çılğındırsa, çılğınlığını, və yaxud təmkinlidirsə, öz təmkinini qoruyub saxlayaraq mövcud olmağı bacarır. Hər birinin içində isə ənənəni qoruyub saxlayan, onu sevən ruh görsənir. Ə.Salahzadə yaradıcılığını bir çox hallarda azın çoxla, zərrənin bütövlə qarşılaşdırılması anının poeziyası kimi da qiymətləndirə bilərik.

Müasir poeziyamızın məzmunca fərqli şeirlərinin müəllifi olan şeirləri struktur cəhətdən də yenidir. Onun şeirlərində vizual görüntü var sanki. Elə bil şair gördüklərini yazmır, bir rəssam kimi təsvir edir, hadisələri göstərir. Bu cür şeirlərdə rəng və söz çalarları vəhdət təşkil edir.

Sayılıb-seçilən şairin yaradıcılığının son illərində poetik obrazlılıq daha da güclənmişdir. "Bir kənd nağılı", "İşıq nağılı", "Ağac nağılı" və bu tipli şeirlərdə nağıllaşan obrazlara rast gəlirik. Bu obrazlar təlatümlü zamanın qəhrəmanlarıdır.

Niyə yaşayır bu ağac?
Niyə yaşıllaşır,
niyə saralır,
çılpaq qalıb üşüyür?!
Nə düşünür bu ağac,
nə gözləyir bu ağac? (38, 93).

Bu şeirdə də ağac obrazı ilə insan taleyi paralel şəkildə verilmişdir. Ağacı düşdüyü vəziyyət fikrə salır, axşam tənha qalır, səhər isə yenidən sərçələrlə "pıçıldaşır".

"Yeddi para kənd nağılı" silsiləsindəki poemalarda da insan taleyi ön plandadır. "Qara yunun ağ yumağı" poemasında müharibəyə dörd oğul yollayan ananın narahatlığı əks olunur:

İstədiyi nə idi bəs,
Böyüyə, haya çata
Yox, qorxuram, tez boy ata

boyu davaya çata (42, 155)

Göründüyü kimi, assosiativlik şairin poemalarında da özünü göstərir.

Onun poeziyası assosiativ təfəkkürlə yoğrulduğu üçün bəzən onu aça bilmirik. Bəzən isə onun şeirlərinə hərə bir cür məna donu geydirir. Onun şeirləri nəzəri qaydalara sığmır, bildiyimiz təhlil qaydaları ilə üst-üstə düşmür. Bu poeziyanın təhlili üçün estetik baxış, həssasiyyət, poetik duyum olmalıdır. Əks halda, tədqiqat uğursuz alınar. Ona görə də Ələkbər Salahzadə poeziyasının araşdırmamışdan öncə həm modern üslubun cəhətlərinə bələd olmaq, həm də şairin yaradıcılığına hər tərəfli işıq salmaq lazımdır.

Ələkbər Salahzadə modernizm üslubun bütün xüsusiyyətlərindən yararlanaraq yeni əsərlər ərsəyə gətirmişdir. Bununla belə, şair öz yenilikləri ilə ədəbiyyata töhfəsini vermişdir, eyni zamanda modern üslubunda yazanlar üçün yeni yol çizmişdir.

## 2.2. Ə. Salahzadənin Azərbaycan modernist poeziyasına təsiri

Ələkbər Salahzadə istər yaradıcılığının ilkin, çiçəklənən, eyni zamanda tənqidlərə tuş gəldiyi 60-cı illərdə, istərsə də poeziyada şair kimi öz durğunluq dövrünü yaşadığı 90-cı illərdə öz üslubuna, dəsti-xəttinə sadiq qalmışdır. O, yeni poetik dünyanın təmsilçisi idi. Şair poeziyasında özünü "kəşf edirdi". Modern üslub isə ona bu imkanları verirdi. Şair bu imkanları əsas götürərək yeni eksperimentlərə can atır, modernist poeziyaya təsirini göstərirdi. Bununla da Azərbaycan poeziyasına yeni nəfəs gəlir, fərqli cığır açılırdı.

Ələkbər Salahzadə novator olaraq, mövcud yazı strukturuna, modellərinə, sərbəst şeirin prinsiplərinə əsaslanaraq, modernizmin yenilikçi ruhuna söykənərək mətnin struktur və məzmununda yeniliklər etmiş, yazdığı hər şeirə yeni nəfəs gətirmişdir. Bu yeniliklər də digər şairlərin yaradıcılığında əks olunmuşdur.

Şair Azərbaycan modernizmində bir sıra yeniliklərə imza atmışdır. Öncə qeyd edək ki, o, ilk dəfə sistemli şəkildə şeirdəki obrazlı nitqi səs-fonem kontekstində qurmuşdur. Azərbaycan ədəbiyyatında assosiativ şeirlərin ilk nümunələri Ələkbər

Salahzadənin adı ilə bağlıdır. Assosiativ poeziyanın nümayəndəsi olan Ə.Salahzadə yaradıcılığının ilk illərində forma orijinallığına daha çox fikir verirdi. Azərbaycan poeziyasında onun əsərlərinin poetik siqləti diqqət çəkir. Lakin uzun zaman Ə.Salahzadənin şeirlərindəki obraz zənginliyi, assosiativlik düzgün qiymətləndirilməmiş, bəzi "formalistlər", "sərbəstçilər", "eksperimentçilər" bunu ənənəyə zidd olan bir hal hesab etmişlər. Buna baxmayaraq, Ələkbər Salahzadə öz yolundan dönmür, poeziyaya yeniliklər gətirməkdən çəkinmir, sözü poeziyaya çevirmə missiyasını yerinə yetirirdi. "Həmişə onun yaradıcılığından söz açanda diqqəti yalnız bir cəhətə yönəltmişlər: tərifləyirlərsə, şeirlərinin obrazlılığından, assosiativ zənginliyindən söz açırlar, tənqid edirlərsə, şeirlərinin başa düşülməməsindən, mücərrədliyindən gileylənirlər. Ə.Salahzadə kimi şairi eyni zamanda, məzmun planında da öyrənmək, dərk eləmək lazımdır" (50,19).

Assosiativ təfəkkür hər bir nəsnəyə və hadisəyə ağıla gəlməyən qəfil bir yöndən, yeni prizmadan yanaşmaqdır. Arif Abdullazadənin təbirincə desək, "Assosiativ təfəkkür daha incə, zahirən daha da mürəkkəb ümumiləşdirmələr vasitəsi ilə meydana çıxır. Burada bənzədilən və bənzəyən arasında "məsafə" daha da uzun olur və məna dərinliyi daha aydın ifadə tərzinə əsaslanır və ümumi məzmun, konkret hiss ilə yaranmış olan assosiativ təfəkkür obrazlı təfəkkürün demək olar ki, ən yüksək formasıdır" (16 , 123).

Şairin yaradıcılığındakı assosiativlik bir sıra xüsusiyyətləri ilə seçilir. Onun şeirinin mövzu və məzmun dairəsi, ideya tamlığı, dolğunluğu, rəngarəngliyi, genişliyi barədə çox danışmaq olar. Əvvəlcə onu qeyd edək ki, o, poetik təfəkkür və deyim tərzində fəlsəfi düşüncəyə geniş yer verir, xırda həyat və məişət predmetlərindən fəlsəfi mənalar çıxarırdı. Məsələn, "Avarqollular" şeirində insan-balıq, həyat-dəniz bənzərliyini görürük:

Səhər
        evdən çıxdılar
arzuların dalınca,
qayğıların dalınca.
Balıqların qənimi

süründü

yavaş-yavaş

qayıqların dalınca (38, 34).

Fikir versək, görərik ki, Ə.Salahzadə poeziyasının əsasını insan və insanlıq təşkil edir. İnsan obrazı bu şeirlər üçün müasirliyin köklü problemlərinin təcəssüm tapdığı obyektidir.

Ə.Salahzadə şeiriyyatında hər xarakterli obraza rast gələ bilərik. Ə.Salahzadə şeirin detallar bəzən aydın, bəzən naməlum olur. Bəziləri müstəqil, bəziləri isə obrazlaşmamış şəkildə Salahzadə poeziyasında qarşımıza çıxır. "....əlaqələri düyünləmək və harmoniya yaratmaq Ə.Salahzadə təxəyyülünün tükənməz imkanlarından biri kimi diqqəti cəlb edir. Çünki bu obraz – mərkəz insandır!" (4, 44). Yeniliklərə imza atan şair "insan və insanlığı" poeziyanın özəyinə çevirəndən sonra bu mövzu digər poeziya nümayəndələri üçün də əsas oldu.

Müasir dövrün poeziyasında da insan və insanlıq ön planda dayanır. İnsan və onun azadlıq sevdası, sevgi və onun fəlsəfəsi, ölüm və onun mistikası yaradılışın fərqli spektrlərini nişan alaraq yeni məzmun kontekstində poeziyanın obyektivinə fokuslanırdı. Müasir dövrün şairlərindən Ramiz Rövşənin, Şəhriyar del Geraninin və başqalarının yaradıcılığında başda "insan və insanlıq" dayanır.

Mən bir qadın bətninə

yığılmaq istəyirəm.

Bu dünyada

insan kimi doğulmaq istəyirəm (59).

Sonra şair toza bənzədir, özünü göz üzündə azad hiss edir. O, göydəki azad tozu yerdəki kölələrdən üstün tutur. Ə.Salahzadənin poeziyasında təbiət və məişət lövhələri də öz əksini tapır. Müəllif gördüklərinin hekayəsini yazır, nağılını qoşur. Təbiət obrazlaşır, həyati məsələyə çevrilir, insan olur, zamana sinə gərir, məişət problemləri ilə yaşayır:

Uzanır,

uzanır,

usanır bu çay,

Ordan, yaxın uzaqlardan
sözdən də süzülür,
uzanır bu çay,
Vurub çaylığından
qırağa çıxır (42, 7)

Burada çay bədii boyalarla təsvir edilir. Sanki oxucu axan çayı görür, duyur. Klassik şeir nümunələrində təsvir olunan çaylardan fərqlənir. Şair çayın qeyri-adi tərəflərinə başqa aspektdən baxır, onu başqa rakursdan təsvir edir. Bu təsviri konkret detallarla poetikləşdirir. "Usanan" çay "haray çəkir", "televiziyadan vərəqə axır". Çay haray çəkir...Amma hələ ki, harayı dünya boydadır, dünyaya sığır. Şair çayı insanın dözümü, səbri ilə müqayisə edir, səbirdən uzun olan çayların susduqca susduğunu söyləyir.

Orxan Bahadırsoy, Səlim Babullaoğlu, Şəhriyar del Gerani kimi şairlərin yaradıcılığında da insan və təbiət paralelliyinin şahidi oluruq. Orxan Bahadırsoyun "Ağac adam" şeirində ağacın xüsusiyyətləri insana, insanın xüsusiyyətləri ağaca köçürülür. Bu mənalar bir-birinin içərisinə elə keçib ki, şairin insandan yoxsa ağacdan danışdığını ayırd etmək olmur:

Söykənmişdim sənə mən,
yıxıldın, ağac adam!
De hansı vərdişimdən
sıxıldın, ağac adam? (61).

Şair “ağac adam”a arxalanır, güvənir, onun münasibətini öyrənir. Bir budağının belə qırılıb düşməsinə icazə vermir. Gövdəsində siqaret söndürmür, onu incitməkdən qorxur. Burada şair sanki xalq inancından doğan “ağacı incitməzlər, ağaca balta vurmazlar” kimi məsəllərə əməl edir. Onu insan gözündə görür. Birdən-birə oxucunun beynində sual yarada bilir: “Şair insana bənzətdiyi ağacdan danışır, yoxsa ağaca bənzətdiyi insandan?” Modernizmdən qaynaqlanan bu yeniliyi görürük. Şair tabuları qırır. Oxucuları çaş-baş qoymağı bacarır.

Səlim Babullaoğlu da poeziyasında zaman-zaman insan-təbiət qarşılaşması edir, özünü ağaca, yağışa bənzədir:

Yolunun üstündə tək ağac olub bitsəm,
kölgəmdə dincələcəksənmi
Ya qol-budağımı qırıb oduna qızınacaqsanmı? (9,10)

Şair birdən-birə yağışa çevrilməyini istəyir. Hətta sevgilisi təəssüratı bağışlayan şəxsə sual verir ki, əgər yağış olub səsli-küylü olan şəhərə yağsa, ətrini duyaraq onu hiss edə biləcəkmi? Şeirdə insanın yağış, yağışın insan olmasını görə bilirik, təsəvvürümüzdə canlandırırıq.

Ə.Salahzadə poeziyasının spesifik cəhətlərdən də biri predmetin mənalandırılma prosesidir: belə ki, şairin poeziyasındakı predmetlər "bütövdən, tamdan başlamır, bütövə və tama poetik "relsi" hissəcikdən salır" (50, 19). Şairin şeirlərində "baxışlar ələnib", "ümidlər donub", "fikirlər planetə axıb", "nənnilər anaların kirpiyindən asılıb" və s.

Adil Mirseyid yaradıcılığında da eyni mənalandırma prosesinin şahidi oluruq:

pəncərədən baxıram
astanada oturub
siqaret çəkir kölgəm (75).

"Kölgənin siqaret çəkməsi" ifadəsi ədəbiyyat üçün yenidir. Şair oxuculara yeni hislər aşılayır. "Gül ləçəyi altında, ölümdən xəbərsiz, gizlicə ölmək istəyir. Dünyanı göyərçin gözlərində kiçildir. Dünyanı kiçiltməklə könlünü ovudur. Şair yeni hislərlə, duyğularla, ifadələrlə şeirini ənənəvilikdən uzaqlaşdırır. Ümumişlək sözlərlə yeni ifadələri yaratmağı bacaran şair təkcə söz oyunları etmir, həm də sözlərdən ilmə çəkir, rənglərlə boyayır.

Müasir gənclik tərəfindən sevilən şairin əksər şeirlərində hadisələr özünəməxsus şəkildə canlandırılır. Bu hekayələr həm obrazları, həm ifadə vasitələri ilə bərabər duyğularımızda, düşüncəmizdə öz izini buraxır. "Ləpə dalınca – ləpə" adlı şeirdə də qeyri-adi lövhələr canlanır:

Su axdıqca,
su artdıqca
bir dənizə çatdı çay;

ilk sədanın,
ilk ləpənin dalınca
bir çay gəldi
dənizə;
ləpə dalınca – ləpə,
səda dalınca – səda...(41, 22)

Bu şeirdə də obraz olaraq çayı görürük. Axıb tökülən çay dənizə, sonra isə ləpələrə qarışır. Biz çayı Ə.Salahzadə poeziyasında doğmaları ayıran obraz kimi də görürük:

Gümüşü sularıyla
torpağın yarasını
sarıyıb tənzif kimi
aradan bir çay keçir!.. (70).

Şair çayla bərabər palıd ağacını da həm nəsil-kök, həm də Vətən anlamında təsvir edir. "O taydakı palıdın" bu biri tərəfdə də kökü olduöunu yazan şair bir əsrlik hicrandan ürək yanğısı ilə bəhs edir.

Poetik ustalığı ilə seçilən şair "Uçar quşlar, yarpaqlar" nağılında uçuşan yarpaqlarla quşlar müqayisə edilir. Bir-birilərinə qoşulan yarpaqla quş qışın dalınca gedirlər.

Payızı yara-yara
bu yarpaqlar hara uçur?
Dönüb o üzə-bu üzə,
qışqıra-qışqıra uçur (70)

Quşun lələk-lələk uçması, baharın sökülməsi və s. kimi poetik ifadələr şeiriyyətə yeniliklər gətirməklə yanaşı insanı düşündürür. "Sökülmək" sözünü poetik olaraq "dan yerinin sökülməsi" kimi birləşmə daxilində görməyə alışmış oxucular üçün birdən-birə "bahar sökülür" şəklində yeni bir pəncərə açır.

Şeirdə hər misranın öz poetikliyi, məna dərinliyi var. Məna qatında isə bir çox məstləblər yatır. Şeirdə rast gəldiyimiz sonuncu misra çox nizamlı, dərin, mənalı,

dolğun fikir cərəyanı yaradır. Yazda təbiət tumurcuq-tumurcuq tikilir, yarpaq-yarpaq qurulur. İnsan ilə təbiət lazım gələndə qarşı-qarşıya dayanır. Yazda tikilən təbiət getdikcə "sökülür". Quşlar uçur, yarpaqlar tökülür. "Dam qırağında damlalar" şeirində isə həmin hadisələrin təzadı əksini tapır: yaz qışa hücum edir. Quş dimdiyində - qış dimdiyində paralelliyini verən şair damcıları canlı boyalarla təsvir edir:

tıq-tıq!..
Başlar qışa son həmlələr.
İndi də yaz öz qisasını alır, hərarəti ilə qışı əridir… (70)

kimi ifadələrdən sonra "Yaz nəbzində döyünmək" kimi bir ifadəyə rast gəlirik. Şair qan qaynanayan vaxt olan yazın hərarətini, temperamintini şeirə köçürür. "Ağ don üzül-üzüldədi" deyən şair düymələrin qopmasını, donun cırılmasını poetik şəkildə qələmə alır.Alliterasiya və assonans səslər də öz növbəsində assosiativliyi yaradır.

Şeirdə bahar öz istiliyi ilə qarlı qışı məğlub etməyə çalışır, quşlar yenidən qayıdırlar. Bu şeirdə poetiklik güclüdür. Şair bədiilikdən istifadə edərək öz duyğularını da qələmə alır. Həm təbiəti, həm insanlığı şeirə gətirir.

Qulu Ağsəs poeziyasında da insanlığı təbiətlə vəhdətdə görürük. Şair çəkinmədən fərqli formada ifadələr işlətməkdən çəkinmir. Şeirlərini də orijinal və poetik ifadələrlə adlandıran şair eksperimentlər aparmaqdan çəkinmir. Məsələn, "Dur(y)ğu işarələri silsiləsi"dən nümunəyə nəzər salsaq, assosiativliyin misralardakı əksini görərik.

Səssiz gecədir… Çox var
Hələ sübh azanına.
Qələmim balta kimi
yenə doğrayıb tökür
gönüqalın gecəni
hecanın qazanına…(71)

Misralarda "balta kimi doğrayan qələm", "gönüqalın gecə", və başqa poetik ifadələr əks olunmuşdur. Vaxtını unutduğu qəribə bir səhər düşünür ki, "Ürəyinin

yağı ilə bişən gecə" şair "Günəşə pay tutur". Yeni kəlmələr, ifadələr insanı cəlb edir. "Yemək bişirmək", "adam bişirmək" kimi ifadələrə öyrəşən oxucular birdən-birə "Gecəni bişirmək" şəklində qarşılarında canlanır.

Ələkbər Salahzadə vətənpərvər şairlərdən idi. O, vətənpərvərlik duyğularını poetik dillə izhar edir, cəsarətli fikirləri ilə seçilirdi. Sovet hakimiyyəti dönəmində Cənubi Azərbaycan məsələsinə toxunmaq, saz kimi milli musiqi alətlərini təbliğ etmək cəsarət tələb edirdi. Ə.Salahzadə də öz yaradıcılığında cəsarətli addımlar atır, heç nədən çəkinmirdi.

Məsələn:

Sinəsindən yuxarı,
sinəsindən aşağı
axır gümüşü çaylar;
bir teli Kür,
bir teli Araz,
bir teli Samur,
bir teli də Sarı Aşıq–
Əriyə-əriyə sarı simə dönüb axır... (38,30).

– "Saz" şeirindən olan bu misralarda təbiət təsvirləri vətənpərvərlik hislərini örtüb, boyayıb.

Simdən-simə,
səsdən-səsə barmaqlar-bərə.
Alışır Araz simi,
Kür boşalır haraya:
qoşur yanğısına sərin səsini,
səs daşqını alır bütün simləri.
"Cəngi" cingiltisiylə cinlənir çaylar,
Nərə-nərə çalışır çaylar,
Bir səhraya çilənir çaylar,
Bir kədəri axıdırlar,
Bir sevinci daşıyırlar razı-razı (38,30).

Bu misralarda həm sazın təsvirini, həm də Cənubi Azərbaycan həsrətini görmək, duymaq olar.

Şair bütöv Azərbaycan idi. Onun yaradıcılığında hər bölgə, hər dağ, daş, torpaq, düz –Vətənin hər qarışı tərənnüm edilir:

Yaxını sınadıq, dostu tanıdıq,
sözüm, kimimiz var Vətəndən ayrı? (42, 18)

Şair sonrakı misralarda Vətəni "od, ocaq, köz" adlandırır. Bədii suallı, dörd misralıq şeirdə "Vətəndən başqa kimimiz var?" deyə dileylənir.

Bu misralarda vətən qürurunu görürük. Şair Vətəni ocaq bilir, od bilir. Tarixini, qədim torpaqlarını da unutmur:

İtməz vaxt içində yaxın uzağım,
Midiya sorağım, Qəbələ çağım...
O taylı - bu taylı təkmisən, dağım,
düzüm, kimimiz var Vətəndən ayrı? (42, 18)

Şair digər bəndlərdə ermənilərin özünküləşdirmək istədikləri əzəli torpaqlarımız olan Qarabağın, Naxçıvanın adlarını çəkir və bu ərazilərin qədimliyindən xəbər verir.

Ramiz Rövşən, Rüstəm Behrudi kimi şairlərin poeziyasında da vətənpərvərlik hislərini görə və duya bilərik. Ramiz Rövşən Vətən anlayışını daha geniş, eyni zamanda dar anlamda götürür.

Vətən, səni sevə-sevə
axı necə itirdim?
İldən-ilə səni ev-ev,
küçə-küçə itirdim (7,110)...

Şeirin bu bəndindən sonra ritmiklik, poetiklik daha da artır, şeirdə rəngarənglik artır. Şair Vətəni rəngbərəng təsvir edir, rəngdən-rəngə düşdüyünü, dalan-dalan, tin-tin dəyişdiyini yazır. "Saxlamağa gücüm çatmır" yazaraq poetikliyi daha da artıran şair Vətəni körpü altdan axaraq itirdiyinə təəssüflənir.

Şeirdə Vətən də, onun dərdi də kodlarla verilir. Körpü altdan axıb itən, Vətəni ayıran Arazı, itirdiyimiz Qarabağ torpaqlarını, tarixi ərazilərimizi simvollarla görürük.

Bundan başqa, bu şeirdə Vətən anlayışını iki cür anlamaq olur: həm sərhədləri olan, itirilən Vətən kimi, həm də daxili dünyanın simvolu kimi. Bəzi sətirlərdə insanın mənəvi aləmi ilə də qarşı-qarşıya qalırıq.

Vətənini azad, bütöv görmək istəyən Rüstəm Behrudinin vətənpərvərlik hissləri daha geniş planda canlanır:

Mənim andım "Ya bütövlük, ya qandı",
Zalım dostlar, qəbul edin bu andı,
Qara başım bu yolüstdə qurbandı,
Vətən! (72)

60-cı illər ədəbiyyatına nəzər salsaq, görərik ki, poeziyada İkinci Dünya Müharibəsinin ağrılarına, acılarına, dəhşətlərinə geniş yer verilmişdir. Ə.Salahzadə yaradıcılığı üçün də bu mövzu öz aktuallığını itirməmişdir. Müharibədən az əvvəl dünyaya gəlmiş Ələkbər Salahzadə bu mövzularda yazdığı şeirlərdə ənənədən çıxır, bunu özündə bir vərdişə çevirir. "Onun şeirlərində müharibənin gətirdiyi maddi və mənəvi itkilər nağılvari şəkildə təsvir edilirdi. Bu cəhətdən Ə.Salahzadənin müharibə ilə bağlı yazdığı şeirlərdə pafos yox, poetik dərketmədə görümlülük başlıca yer tutur. Burada şair yalnız oz tərcümeyi-halını yazmır, bütöv bir nəslin aldığı mənəvi yaraları göstərir"(20, 230) .

Həmin günlər, xatirələr Salahzadə yaradıcılığında qırmızı xətt kimi keçir. Şair 1941-ci ildə doğulduğunu yazaraq müharibə ilə yaşıd olduğunu bildirir. Müharibənin çətinliyini şair bədii və fərqli lövhələrlə verir:

dördcə il
dava havasında yaşa dolduq.
dörd yaşımızda, (50, 16)

Bu şeirdə 4 yaşlı uşağın heyrəti, nağıl dünyası ilə bərabər qorxusu, həyəcanı da əks olunmuşdur. Şair dörd yaşında müharibə havasında yaşa dolduğunu qeyd edir. Sonda da "yaxşı ki dörd yaşımızda qaldı" deyərək şeiri nikbinliklə bitirir.

Ələkbər Salahzadə poeziyasında Qarabağ müharibəsinə də rast gəlinir. "Xocalı xəcilləri" adlı poeması da müharibə mövzusunda yazılan əsərlərdəndir. Şairə xas olan assosiativlik burada da özünü göstərir. Əsərdə ilk qırx misra "X" hərfi və sözü ilə başlayır. Bu isə şairin söz ehtiyatının çoxluğundan, güclü poetiklikdən xəbər verirş. "X" hərfi həm Xocalı faciəsinin baş hərfini bildirir, həm də bu hərf işarə kimi "imtina"nı, "naməlumluğ" u ifadə edir. Sanki Xocalının, onun əhalisinin üzərinə "X" çəkib tarixdən silməyə çalışmışdılar:

Xocalı adında yer Xəbis, xudbin,
Xain yağı əlilə Xarabağlığa döndü...(52)

Şair bu misralardan sonra söyləyir ki, Xocalıya xor baxandan sonra xarabalığa çevrilmişdir. Xatın Xocalı Xirosima Xocalıya çevrilmişdir.

Bu poema Milli Qəhrəman Çingiz Mustafayevin xatirəsinə həsr olunmuşdur. Şair poemada Xocalı faciəsini detalları ilə açıqlayır, bu dəhşətlərə isə Çingiz Mustafayevin kamerası ilə nəzər salır:

"Nələr görmüşdü, Çingiz, Nələr, nələr çəkmişdi, bir-birindən qorxulu mənzərələr çəkmişdi. Açıq-aşkar nə xəlvətlər, nə gizlinlər çəkmişdi!.. Vətən imtahanından kəsilənləri çəkmişdi. Aşkarlıqlar içində gizlənənləri çəkmişdi. Hələ öndə olacaqlar, gözlənənləri çəkmişdi" (43,16 ).

Poema rəmzləşdirilmiş boyalarla bitir:

"XXI əsrin "X" ilinin xronikası. Aydan gələn arxeoloqlar yeri qazıb oyurlar. Onıar qəribə bir iy duyurlar. "Ay aman, neft qoxusu gəlirdi yerdən" (43,46).

Şair bu misralarla demək istəyir ki, başımıza gələn bütün müsibətlər təbii sərvətlərimizə görədir. Azərbaycan hər zaman təbii sərvtələrinə görə hücumlara məruz qalmışdır. Ədalət Əsgəroğlunun "Dərdimizin qan rəngi" poeması da eyni motivdə yazılmışdır. İki əsər arasında məzmun və ifadə baxımından oxşarlıqlar çoxdur. Ələkbər Salahzadə kimi Ədalət Əsgəroğlu da əsəri Xocalıya əsər həsr etmişdir. Xocalının işğalının 15-ci günündə bu hadisələrə həsr olunmuş poemada

hədəflər çoxşaxəlidir: "Burada son iyirmi-iyirmi üç ilin Azərbaycan məmləkəti dərdimizin qan rəngi obrazında metaforikləşib. Qan burada Xocalıdan bütün dünyaya yayılan fəryadın, kədərin simvoludur" (52).

Bundan başqa, poemadakı qan tarixin özüdür, təklənən diyardır, harayın boğulmasıdır. Ə.Əsgəroğlu poemada bu kəlmənin müxtəlif metoforik çalarları, mənalarını izah etmişdir. Oxucuya sarkazmla "nə əcəb, buna dərd deyirlər?" deyə sual verir. Özü də cavab verir ki, bu, dərd deyil, müqəddəs bir candır. Torpağı, Vətəni "müqəddəs can" adlandıran şair oxucunu qəflət yuxusundan oyandırır, ona bildirmək istəyir ki, Xocalı kimi digər tapdaq altında olan ərazilər candır. Bizdən, canımızdan, qanımızdan ayrılan can. Vətən torpağı hər birimiz üçün bədəndə can, damarda qan olmalıdır. Şair bu ifadələri son dərəcədə mükəmməl poetiklik ilə verir:

Xocalıdan Bakıyacan,
qan boyalı villalardan
cana doymuş çadıracan (52)

- deyən şair bir vaxtlar Xocalıda imarətlərdə yaşayanların gəlib çadırda yaşamasını ürəkağrısıyla qeyd edir.

Bəzi tədqiqatçılar Ə.Salahzadə şeirlərini mahiyyətə varmadan emosiyasız qələmə almaqda günahlandırır, fikir poeziyası nümunələri hesab edirlər. Onlara görə, guya Ə.Salahzadə şeirləri yaradıcılıqdan, obrazlılıqdan məhrum olub quru, soyuq mühakimələrdən, ritorik cümlələrdən ibarətdir. Hərçənd ki, həmin şeirlər emossionallıqla, ekspressivliklə zəngin bir poeziya nümunələridir. Həmin nümunələrin emossioanlığı birbaşa mühakimə ilə bağlıdır. Bu emossionallığı klassik şeirdəki ifadəlilik kimi qəbul etmək olmaz.

Əksər məsələlərdə Ə.Salahzadəni digər qələm dostlarından fərqləndirə bilərik. Onun fərqliliyi hər zaman axtarışda olmasında idi. O, obrazlı deyimlərin, yeni poetik ifadə vasitələrinin, şeirə gəlməli olan ən uyğun metaforaların, təşbehlərin axtarışında idi. Şeirlərində assosiasiyalara meyil xeyli güclü idi, həmin şeirlərdə sözlərin və səslərin alliterasiyası ritm əmələ gətirir, məsələn, “Xocalı xəcilləri” poeması, musiqi sədalarını andırır. Salahzadə şeirdə sözlər vasitəsilə nadir tablolar

çəkirdi. Salahzadə modern şair idi və o, bəzilərinin fikirləşdiyi kimi, ənənəyə üz döndərmirdi, ənənə onun şeirlərində bir ruh kimi yaşayırdı (34 , 329).

Ağ bir zanbaq kimi açıldı səhər!
Şəfəqlə suladı
susəpən kimi
günəş zanbağı.
Qızlar xəbər tutmadılar (41, 49)

Emosional, bədii nitqi yaratma, qurma vasitələri nə qədər zəngin də olsa, ondan istifadə etmək imkanları şairin bacarıq və istedadından asılıdır. Ədəbiyyatımızda söz üzərində, şeir boyu, misra boyu qurulan saysız təsvir və obrazlar vardır. Lakin bu sırada samitlərin və saitlərin ahəngdarlığı ilə yaradılanlar o qədər də çox deyil. Milli poeziyamızın qədim nümayəndələrindən biri olan İ.Həsənoğlu yaradıcılığında səs poetikasının orijinal nümunələrinə rast gələ bilirik:

Bir çağlayır, bir coşur okeanlar, dənizlər,
Bir-birinə qovuşur okeanlar, dənizlər.
Birisinin dalğası o birinə keçir də,
Birisindən balıqlar o birinə köçür də (38 ,60).

Ə.Salahzadə poeziyasındakı assosiasiya zənginliyi bədii təsvir və ifadə vasitələrində də vüsət alır. O, eksperimentlər apararaq yeni poetik kəşvlər etməkdən çəkinməmişdir. R.Rza bu barədə qeyd edir:

"Salahzadə və İsmayılzadənin şeirlərindəki poetik kəşflər bizi sevindirir. Onlar milli poeziyanın mütərəqqi ənənələrinə sadiq qalaraq həmin poeziyanın çərçivəsini genişləndirməyə, xalqın poetik yaradıcılığına yeni boyalar, yeni formalar gətirməyə səy edirlər" (34,124).

Bu cür şeirlər "Od heykəli" (979), "Xatirə çiçəyi" (1970), "Gözlər baxır dünyaya" (1979), "Xatirə çiçəyi" (1982), "Yerimiz bir, göyümüz bir" (1986), "Od odası" (1989) kitablarında toplanmışdır. "Gözlər baxır dünyaya" kiabında assosiativ poeziyanın imkanlarını genişləndirmiş, vərdişə çevirmiş, yaratdığı hər misradan da yeni misralar qoşmağı bacarmışdır. O, bu kitabdakı şeirlərdə sözlə "şəkillər çəkməyi" bacarmışdır.

Gənc şair Şəhriyar del Gerani şeirlərində də poetik kəşflər özünü göstərir. Görmədiyimiz, duymadığımız ifadələr Şəhriyar poeziyasında ifadəsini tapmışdır. Ən adi görünən ifadələrə də şair o qədər ustalıqla yön verir ki, sanki dilimizdə o sözlər bizə yeni təsir bağışlayır:

sən, əl çatacaq qədər uzaqsan,
toxunacaq qədər yoxsan.
səndən çıxıb getmək daha asandı,
sən qadın deyilsən,
qadın olacaq qədər çətinsən(66).

Gənc şair mücərrədlikdən danışır. Bəzən "səndən getmək asandı", "sən qadın deyilsən" deyərək iddihamlar edir, bəzən isə "qadın olacaq qədər çətinsən" kimi təzadlı fikirlər yazır. Şair yazdığı məktubları silib göndərir. O, sevgilisinin gülüşlərini qatar səsinə, dodaqlarını sərçə uşuşuna bənzədir. Amma onları yazmır, çünki həqiqətdə belə olmadığını düşünür.

"Qadın olacaq qədər çətin", "Sərçə uçuşu kimi titrək", "Gülüşün qatar səsi qədər kədərlidir" və s. poetik ifadələrlə orijinal poetiklik yaradan gənc şair öz poeziyasında da modernizmə xas olan assosiatovlikdən istifadə etmişdir.

Ələkbər Salahzadə mövzu baxımından şeirinin məna tələbi ilə heca vəznini seçirdi. Ramiz Rövşən, Vaqif Bayatlı, Salam Sarvan poeziyasında da modernist üslub heca vəzni daxilində aparılır. S.Sarvan eksperimentlərin çoxunu barmaq (yəni heca) vəzində edir. Hətta şair qəzəl ritmini də hecaya gətirməkdən çəkinmir:

Hörüyün əlimdə təsbeh əvəzi
Üstündə duamı oxudum, ayıl.
Sənin məhəbbətin mənim gözümdə
Tərsinə yozulmuş yuxudur, ayıl

- bu misralarda orijinal bədii təsvir və ifadə vasitələri əks olunub, sözlər tanış, ifadələr, aşıladığı duyğular isə yenidir. Bu misralarla trafaretlər qırılıb. Dörd misra sonrakı misralar, təzadlı fikirlər və şairin çatdırmaq istədiyi ideya üçün giriş verir:

Indi sən mənimçün heç nə deyilsən,
Indi nə dərdimsən, nə nəşəm, qadın!

Mən səni sevmirəm, sənin qoynuna
Sənnən gizlənməyə girmişəm, qadın...(73).

Şair klassik ədəbiyyatda gördüyümüz saf, təmiz, səbrlə əldə edilən hislərin və obrazın tam əksini – vecsiz, küskün, daş qəlbli, sevgisiz "aşiqi görürük. Sevgilisindən qaçmağa çalışan şair ona "hələ gizli-gizli ovuram səni, gah daş daşıyıram, gah qum atıram" deyərək insan ömründən silinmə prosesini bədii və fərqli sözlərlə bildirir.

Burada modernizmə xas olan qəhrəmanı görürük. Qəhrəman sevir, lakin aşiq deyil, imtina etməyi bacarır. Eşq axtarmır, hətta böyük məhəbbətlə sevməkdən qaçır, gizlənir, getmək üçün "lağım qazır".

Aqşin Yenisey yaradıcılığında isə sərbəst forma qafiyələnmə ilə verilir. Bu qafiyələnməni heca vəzndəki ilə eyniləşdirmək olmaz. Bu qafiyələnmə harmoniyanın hesabına baş verir. Heca vəznindəki qafiyələnmə kimi nə oxucunu, nə də müəllifi çərçivəyə salmır:

İstəyərdinizmi ürəyiniz adi insan ürəyi olsun?
Yəni bir az daş.
İstəyərdinizmi gözləriniz adi insan gözləri olsun?
Yəni bir az kor
İstəyərdinizmi adi insan kimi ağlayasınız?
Yəni hərdən, aradabir (74)

Şeirdə modernist üslubun "təmkinli" inkarını görürük. Şair adi insanın, əslində, ürəyi daş, mənəvi gözü kor olduğunu yazır. Adi insan hərdən ağlayır, intihar etmək istəyir, kimsəsiz olanda getməyə yeri də olmur. Şair sadə cümlələrlə fəlsəfi fikirləri oxuculara çatdırmağı bacarır. Sonra şair oxuculara intihar edən, küçələrə atılmış insanların obrazlarını verir. Biz bu obrazların duyğularını hiss edirik, özlərini görmürük. İntihar etmək istəyi ilə pəncərəyə çıxan təbiətin gözəlliyindən zövq alan insanla, küçədə getməyə yeri olmadığı üçün gözləyən sadəcə dayananla müqayisə edilir. Oxucuya seçim verir ki, özün hansı olmaq istəyirsənsə, ol.

Poeziyamızda eksperimentçilik bu gün də davam etməkdədir. Müasir poeziyada bəzən 1960-80-ci illərin təqlidini görsək də, yenilik gətirməyə can atan gənc şairlər də kifayət qədərdir.

Ələkbər Salahzadənin formalaşdırdığı modernizmin davamçıları özləri də eksperimentlər əldə etməkdən çəkinmirlər. Səlim Babullaoğlunun şeirlərindəki rus texnikası ilə intonasiyanın harmonik şəkildə verilməsi, Qulu Ağsəsin poeziyasındakı oyunbaz-praqamatik obrazı, Rasim Qaracanın yenilikdən yenilik yaratma istəyi yeni poeziya - avanqard üçün qapılar açdı. Necə deyərlər, modernizm "sakit" reallığa malik idi, israrçı olan konservatizm çərçivəsində isə avanqardı yaratdı. Avanqard poeziyasının nümayəndələri kimi Rasim Qaracanın, Həmid Herisçinin, Zahir Əzəmətin, Nərmin Kamalın, Günel Mövludun və başqalarının adlarını çəkə bilərik.

Göründüyü kimi, çağdaş ədəbiyyatın bir hissəsinə çevrilən modernizm Ələkbər Salahzadənin yaradıcılığında yeni qapılar açmış, Azərbaycanın sərbəst şeir poetikasını zənginləşdirmiş, müxtəlif çalarlar gətirmiş, onun ifadə vasitələrini daha da artırmış, sərbəst şeirin quruluşuna çoxsəslilik əlavə etmişdir. Bu şeirlərdəki problematika və mövzu ilə yanaşı, onun intonasiya və ritmi həmahənglik təşkil edir. Ələkbər Salahzadə ilə poeziyada açılan cığırda hiss edilən oxşayışlar, bənzəyən əlamətlər eyni poetik ruhla bağlıdır. Həmin poetik ruh Ələkbər Salahzadə vasitəsilə digər şairlərə də ötürülmüşdür.

# NƏTİCƏ

Modernizm XX əsrin hadisəsi olmasına baxmayaraq, Azərbaycan ədəbiyyatında yalnız 90-cı illərdən onlar formalaşmağa başladı. Azərbaycan poeziyasında sosial-siyasi zəmində etiraz ruhu sovet dövründə poeziyanın daha alt qatlarında olmuş, yalnız 80-ci illərin sonlarına doğru milli – azadlıq mücadiləsinin başlaması ilə üst qata transformasiya etmişdir. Bununla bərabər, Azərbaycan poeziyası və ədəbiyyatı modernizmi bir epoxa kimi yaşamamış, müəyyən sərhədləri olan cərəyana çevrilməmişdir. Yalnız bir sıra səciyyəvi cəhətləri ilə seçilməyi bacarmışdır:

1. Forma yeniliyi üçün digər xalqların şeir formalarından istifadə etmək;
2. Forma qatında inkar motivinin bir neçə istiqamətdə özünü göstərməsi;
3. Sınanmış vizual şeir effektlərindən yararlanmaq, eləcə də yeni ifadə və təsvir vasitələrini yaratmaq;
4. Çevik dil qaydalarına, dil oyunlarına riayət etmək;
5. Durğu işarələrini semantik anlamda canlandırmaq və lazım gəlsə imtina etmək;
6. İnsanın şüuru ilə alt şüuru arasında bağlantı qurmaq və bundan istifadə etmək;
7. İnkar və tənqidin avanqarddakı çığırtı və epatajın, postmodernizmdəki kinayə və ironiya deyil, təmkinlə edilməsi;
8. "Mən"in qabardılaraq fərdi hisslərin ön plana keçməsi;
9. "Təbiət" və "mən" arasında daxili özgələşmə;
10. Milli hisslərlə kosmopolit düşüncənin çulğalaşması;

Azərbaycanın ilk modernist şairi kimi, adətən, Rəsul Rzanın adı çəkilir. Eyni zamanda Fikrət Qoca, Əli Kərim, Fikrət Sadıq, Vaqif Səmədoğlu, Vaqif Cəbrayılzadə, Ələkbər Salahzadə kimi sənətkarlar da modernist eksperimental məktəbə aid edilir.

Ələkbər Salahzadənin Azərbaycan modernist poeziyasına göstərdiyi xidmət əvəzsizdir. Yenilik onun bütünlüklə ruhu, təfəkkürü, dünyagörüşü, həyata və predmetə, mövcudluğa və problemə yanaşma tərzindədir. O, ənənəvi olana daxili

müxaliflik sərgiləmişdir. Ona qarşı çıxaraq dağıtmış və dəyişdirmişdir. Şair poeziyaya yeni ifadələr gətirmiş, köhnələri də dəyişərək ifadəni, təsviri, təsəvvürü yeniləmişdir. Ələkbər Salahzadə Azərbaycan modernizmində bir sıra yeniliklərə imza atmışdır. Azərbaycan ədəbiyyatında assosiativ şeirlərin ilk nümunələri də ona məxsusdur.

Dissertasiya işinin nəticəsi olaraq bir sıra məsələləri aşağıdakı kimi qruplaşdırmaq olar:

– Ə.Salahzadən assosiativ poeziyanın nümayəndəsi kimi təqdim olunur, onun şeirlərindəki obraz zənginliyi, mövzu və məzmun dairəsi, ideya tamlığı, dolğunluğu, rəngarəngliyi göstərilir.

– Şair şeirlərində struktur yenilikləri etməkdən çəkinmir.

– Ə.Salahzadənin Azərbaycan sərbəst şeirinin inkişafında böyük rolu olduğu qeyd olunur.

– Predmetin çoxtərəfli mənalandırılma prosesi Ə.Salahzadə poeziyasının spesifik cəhətləri kimi təqdim olunur

– Ə.Salahzadə şeirində orijinal, təkrarolunmaz bənzətmələr, təsvir və ifadə vasitələrinin rolu nümunələrlə təhlil olunur

– Ə.Salahzadənin poeziyasında estetizmdən bəhs olunur. Şairin sözlərlə dəqiq işləməyi və söz oyunu qurmaq istedadı nümunələr əsasında göstərilir.

– Ə.Salahzadə şeirlərində modern ovqatla milli ruh, düşüncə və təbiət bir yerdə, eyni çərçivədə, bir qədər də iç-içə yaşaya bilir. Bununla belə, şair rəngləri bir-birinə qarışdırmır, hər birini öz çalarında əks etdirir.

– Ə.Salahzadə poeziyasında obrazlar zəngindir. Onun şeir qəhrəmanları içərisində həm tanınmış insanlara, həm xalqın müxtəlif təbəqələrindəkilərə, həm cansız varlıqlara, həm də təbiət hadisələrinə rast gəlirik.

– Ələkbər Salahzadə şeirlərində harmoniya özünü göstərir. Bu harmanoniya sözdəki bütün sözləri və misraları əhatə edir.

– Ələkbər Salahzadədə obyektə yanaşma həssaslığı yüksəkdir. Bu da şeirlərini daha da mükəmməl edir.

– Ələkbər Salahzadə şeirlərinin sonu konkret, bitkin və məntiqidir. Hər şeiri məntiqi sonluqla bitir və nəticə çıxarmaq mümkündür.

Beləliklə, Ələkbər Salahzadə poeziyası hər zaman yenidir, müasirdir, moderndir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

## Azərbaycan dilində:


1. Abdulla A. Sonsuzluğa gedən karvan (Şeirlər və poemalar). Bakı: Yazıçı, 1988, 155 s.
2. Abdullazadə A. Şairlər və yollar (Azərbaycan sovet poeziyasında yaradıcılıq üslubları). Bakı: Elm, 1984, 224 s.
3. Abdullazadə A.Ə. Od nə çəkdi / Rəsul Rzanın ömür və sənət yolu haqqında elmi-publisistik araşdırma. Bakı: Azərnəşr, 1990, 207 s.
4. Abdurəhmanova F. Lirikada Psixologizm, Bakı: "Nərgiz". 2014, 152 s.
5. Ağabalayeva S. Ələkbər Salahzadə – içində qərib adam: [şairin yaradıcılığı haqqında] //Ədəbiyyat qəzeti, 2015, 11 iyul, s.2; 4-5.
6. Akimova E. Çağdaş poeziya və ədəbi təmayüllər. Bakı: YYSQ - Milli Virtual Kitabxananın e-nəşri, 2018, 374 s.
7. Akimova E. Yeni təfəkkür və ədəbi tənqid. Bakı: MBM, 2012, 280 səh.
8. Atabəyli (Şirvani) N. Azad şeir və onun poetikası. Bakı: Step ltd, 2017, 348 səh.
9. Babullaoğlu S. Palkovnikə heç kim yazmır. Seçmə şeirlər. Bakı: Mütərcim, 2013, 116 s.
10. Bayatlı V.O. Şeirlər. Multukulturalizm. Bakı, 2018, 151s.
11. Borev Y.B. Estetika. Bakı: Gənclik, 1980, 224 s.
12. Cəfərov M.Z. Şeirimiz son beş ildə / Seçilmiş əsərləri. III cild. Bakı, 2003, 154 s.
13. Cəfərov N. Çingiz Əlioğlu - çərçivənin çərçivəsizliyi, yaxud çərçivəsizliyin çərçivəsi// 525-ci qəzet, 2010, 11 dekabr
14. Cəfərov N.Q. Klassiklərdən müasirlərə. Bakı: Çaşıoğlu, 2004, 272 s.
15. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı: Maarif, 1978, 320 s.
16. Əhmədov B. XX yüz il Azərbaycan ədəbiyyatı. Mərhələlər, problemlər, istiqamətlər. Bakı: Elm və təhsil, 2015, 576 s.
17. Əlioğlu Ç. Ömür ağacı (Şeirlər və poemalar). Bakı: Yazıçı, 1980, 141 s.

18.Əliyev R. Sənətkarlıq axtarışlarının yeni mərhələsi - Poeziyanın təbiiliyi. Bakı:Yazıçı, 1982, 90 s.

19.Əliyev R.N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Mütərcim, 2008, 360 s.

20.Əliyeva G. Ələkbər Salahzadə sərbəst poeziyanin görkəmli nümayəndəsi kimi// Filologiya məsələləri. 2018, № 19 , 228-237 s.

21.Fəhmi İ. Nəsildən nəsilə – Nəsrdən nəsrə... 2005–2010-cu illər Azərbaycan nəsrinin panoram mənzərəsi // 525-ci qəzet, 2011, 2 aprel, s. 29.

22.Kərim Ə. Şeirləri. Bakı: Lider nəşriyyat, 2004, 336 s.

23.Qarayev Y.Tarix: yaxından və uzaqdan. Bakı: Sabah, 1996, 712 s.

24.Qəhrəmanlı N.Ə. Ədəbiyyat nəzəriyyəsi, Bakı: BQU, 2008, 106 s.

25.Qoca F. Seçilmiş əsərləri, Bakı: Şərq-Qərb, 2004, 248 s.

26.Məmməd C. "Şeirimiz son beş ildə"//Seçilmiş əsərləri, III cild, Bakı, 2003, 154 s.

27.Məmməd Z. Yeni dünyanin şairləri: Ələkbər Salahzadə // 525-ci qəzet. 2013. 8 iyun. s.19.

28.Məmmədova S.Ç. Azərbaycan ədəbiyyatında yeni yaradıcılıq meyillərinin təşəkkülü. Dissertasiya. Bakı, 2009, 103 s.

29.Mirəhmədov Ə.M.Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı: Maarif, 1978, 199 s.

30.Musayeva İ. XXI əsrdən baxış; ədəbi tənqid və bədii söz. Bakı, Elm və təhsil, 2017, 724 s.

31.Mustafayev T.Ə. Şeirimizin gümüş dövründən fraqmentlər. Tənqid.net" jurnalı, № 8, s. 145-163

*32.*Pənah G., Əhmədli S. Sənət, sənətkar və zaman. *(Müasir ədəbi mühitə ümumi baxış).* Bakı, UniPrint, Bakı, 2014, 602 s.

33.Rəsul R. Qayğı sözü və qayğı özü// "Ədəbiyyat və incəsənət" qəzeti, 1965, 15 fevral

34.Rəsul R. Mənim fikrimcə. Bakı: Azərnəşr, 1967, 420 s.

35.Rəsul R. Seçilmiş əsərləri. Beş cilddə. I cild. Bakı: Öndər nəşriyyat, 2005, 304 s.

36.Rövşən R. Nəfəs. Kitablar kitabı (şeir, nəsr, esse). Bakı: Qanun, 2006, 760 s.

37.Salahzadə Ə. Vaxt vadisi. Bakı:Nərgiz, 2007, 204 s.

38.Salahzadə Ə. Beş yarpaq (Şeirlər və poema). Bakı: Gənclik,1968,108 s.

39.Salahzadə Ə. Gözlər baxır dünyaya. Bakı: Yazıçı, 1979, 135 s.

40.Salahzadə Ə. Milli Qəhrəman Çingiz Mustafayevin xatirəsinə. Bakı: Şirvannəşr, 2006.- 48 s.

41.Salahzadə Ə. Od heykəli (şeirlər və poema). Bakı, Gənclik, 1970, 107 s.

42.Salahzadə Ə. Od odası (Şeirlər və poema). Bakı: Yazıçı, 1989, 184 s.

43.Salahzadə Ə. Xocalı xəcilləri (poema): (Milli Qəhrəman Çingiz Mustafayevə həsr olunur) //Azadlıq.- 2006.- 2 aprel.- s.16.

44.Salmanov Ş. Sərbəst şeir problemi // Ədəbi-nəzəri məcmuə, I kitab, Bakı, 2003, s.66-71

45.Səmədoğlu V. Sandıq şeirləri. Bakı: Mütərcim, 2016, 216 s.

46.Səmədoğlu V. Sən uzaq yaşıl ada. Bakı: Şərq-Qərb, 2004, 264 s.

47.Süleymanlı M. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006, 480 s.

48.Umberto Eko və postmodernizm fəlsəfəsi. Bakı: Qanun, 2012, 204 s.

49.Yusifli V.Ə. Bu, Çingiz Əlioğludur // Kaspi, 2014, 21-23 iyun. s.10.

50.Yusifli V.Ə. Heç kimə bənzəməyən şair - Ələkbər Salahzadə // Ədalət. 2011.- 5 mart.- s. 19.

51.Yusifli V.Ə. Poeziyanın yolları və illəri (1960-2000-ci illər). Bakı: Mütərcim, 2009, 404 s.

52.Yusifli V.Ə. Xocalı faciəsi poeziyamızda // 525-ci qəzet, 2011, 26 fevral, s.14.

53.Zakir M. Şeirin havası. “525-ci qəzet”, 2013, 8 iyun

**Türk dilində**

54.Mevlana Celaleddin-i Rumi. Mesneviname. İstanbul: Salon yayınları, 2016, 752 s.

55.Lecht J. Elli Çağdaş Düşünür (Türkçesi B.Yıldırım). İstanbul: Açılım Kitap, 2006, 448 s.

**Rus dilində**

56.Днепров В. О понятии «модернизм» //Современная литература за рубежом. Сборник четвертый. Москва: Советский писатель, 1975

**İngilis dilində**

57.Bredberi M. Makfarlena C. Modernism: A Guide to European Literature 1890–1930. Penguin books, 1991

58.Harry L. What Was Modernism //Varieties of Literary Experience. N. Y., 1962

**İnternet resursları**

59.Akimova E. Ramiz Rövşən şeiri iki əsrin qovşağında. *edebiyyatqazeti.az/news/edebi-tenqid/1074-ramiz-rovsen-seiri-iki-esrin-qovsaginda*

60.Babasoy Ü. Dövrlər və ömürləri bir yerə yığmağın yorğunluğu. *https://kulis.az/news/19049*

61.Bahadırsoy O. Yenə də bir yastıq girər qoynuma. *https://www.kulis.az/news/17119)*

62.Cabbarlı N. Modern şeirin etiraf edilməmiş əsil nümayəndəsi. *http://senet.az/modern-seirin-etiraf-edilməmis-əsil-numayəndəsi*

63.Cabbarlı N. Modernist-eksperimental şeir və çağdaş poeziyada "neomodernizm" dalğası. *http://kultur.az/?p=7904.*

64.Əlişanoğlu T. Şeirimizin gümüş dövründən fraqmentlər. *http://yarpaq.az/az/tehran-elisanoglu-seirimizin-gumus-dovrunden-fraqmentler/*

65.Əlizadə Ə. Azərbaycan ədəbiyyatında modernizm cərəyanı olubmu? *https://kaspi.az/az/azerbaycan-edebiyyatinda-modernizm-cereyani-olubmu/).*

66.Gerani Ş. Sərçə uçuşu kimi titrəkdi dodaqların... *https://qafqazinfo.az/news/detail/serce-ucusu-kimi-titrekdi-dodaqlarin-sehriyar-del-gerani-26184*

67. McCarthy D. Modernism and conservatism. *https://www.theamericanconservative.com/articles/modernism-conservatism/).*

*68.*Mirseyid A. Allah, bu gecə öldürmə məni.*https://news.milli.az/culture/282376.html*

69.Musayeva İ. Gecikirik! (...modernizmdən yazır). *https://kulis.az/news/15971*

70.Musayeva İ. Səs və məna arasında titrəyişdir. *https://ilkxeber.org/seir-səs-və-məna-arasinda-titrəyisdir*

71.Musayeva İ.Yanımızdan ötüb keçdi yeni şeir dalğaları... (Qulu Ağsəsin şeirləri haqqında...) *https://kulis.az/news/16009)*

72.Muradoğlu N.Şaman şairin qurban duası. *http://senet.az/saman-sairin-qurban-duasi-nizami-muradoglu/*

73.Salam Sarvan Gürcüstan ədəbiyyat portalında. 02.05.2020. *https://achiqkitab.aztc.gov.az/Books/Read/1082/Salam-Sarvan-Sheirler*

74.Yenisey A. Seçmə şeirlər. *https://kulis.az/news/26004*

75.Yusifli V.Modernist şair (Adil Mirseyidin 60 yaşına). *https://525.az/site/?name=xeber&news_id=3767#gsc.tab=0*

76.Yusifoğlu R. Modernizm və onun nəzəri-estetik prinsipləri. *https://manera.az/edebiyyat/2805-modernizm-nezeri-estetik-prinsipler-maneraaz.html*

**Айтадж Фахреддин гызы Мамедбейли**

# МОДЕРНИСТКИЕ ТЕНДЕНЦИИ В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ (НА ОСНОВЕ ТВОРЧЕСТВА АЛЕКПЕРА САЛАХЗАДЕ)

## РЕЗЮМЕ

Магистерская диссертация на тему «Модернистские тенденции в современной азербайджанской поэзии (на основе творчества АлекпераСалахзаде)» состоит из «Введения», двух глав, «Заключения» и «Списка литературы».

Первая глава называется «Модернизм в литературе: теоретический экскурс» и состоит из двух подглав. В первой подглаве, озаглавленной «Теоретические и эстетические основы модернизма», рассматриваются особенности модернизма, а также история появления понятия «модерн» и история возникновения модернизма как направления. Вторая подглава называется «Модернизм в азербайджанской литературе». Здесь рассматриваются история модернизма в азербайджанской литературе, а также произведения поэтов и писателей, писавших в этомнаправлении.

Вторая глава, которая называется «Ассоциативность и образность в модернистской поэзии», посвящена изучению и исследованию работ Алекпера Салахзаде. Она состоит из 2 подглав: «Элементы модернизма в творчестве Алекбера Салахзаде» и «Влияние Алекпера Салахзаде на модернистскую поэзию Азербайджана». В этих двух подглавах анализируется поэзия Алекпера Салахзаде. Кроме того, исследуется влияние Алекпера Салахзаде на современную азербайджанскую поэзию.

В «Заключении» подведены итоги проведенного исследования и обобщены результаты. В конце дан «Список литературы», использованный при написании исследовательской работы.

**Mammadli Aytaj Fakhraddin gizi**

# THE MODERNIST TENDENCIES IN MODERN AZERBAIJANI POETRY (BASED ON THE CREATIVITY OF ALAKBAR SALAHZADEH)

***SUMMARY***

The master dissertation on theme "The modernist tendencies in modern Azerbaijani poetry (Based on the creativity of Alakbar Salahzadeh)" consist of "Introduction", two chapters, "Conclusion" and "Bibliography".

The first chapter named "Modernism in Literature: A Theoretical Excursion," consists of two half-chapters. In the first half-chapter entitled "Theoretical and Aesthetic Foundations of Modernism", there have been studied the characteristics of modernism, also the origin history of the concept "modern" and its history of origin as a current. The second half-chapter is called "The modernism in Azerbaijani literature". There have been looked at the history of modernism in Azerbaijani literature, as well as at the works of poets and writers who wrote in a modern style. The analysis and research works in the second chapter named "Associativity and figurativeness in modernist poetry" is based on Alakbar Salahzadeh's creativity. The second chapter consists of half-chapters named "Elements of modernism in the creativity of Alakbar Salahzadeh" and "The influence of Alakbar Salahzadeh on modernist poetry in Azerbaijan". In these half-chapters, there is analyzed the poetry of Alakbar Slahzadeh. Besides, the influence of Alakbar Salahzadeh on modern Azerbaijani poetry is being studied.

In the result analyses conducted in the dissertation work and obtained results have been generalized. In the end, "bibliography" used for writing the research work has been given.